ƏLİ ŞİRİN ŞÜKÜRLÜ

# XOŞBƏXTLİK EHTİMALI

“Şərq-Qərb”
Bakı - 2011

downloaded from KitabYurdu.org

Redaktor: **Kəramət**

**Əli Şirin Şükürlü. Xoşbəxtlik ehtimalı.**
Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2011, 256 səh.

"Xoşbəxtlik ehtimalı" keçən əsrin 80-ci illərinin ikinci yarısında ədəbiyyata gələn şairin dördüncü bədii kitabıdır. Üç bölmədən ibarət kitaba müxtəlif illərdə qələmə alınmış şeirlər, şeir-esselər və şeir-pritçalar daxil edilmişdir. Müşahidə və yaşantılarını özünə məxsus bədii-fəlsəfi laboratoriyadan keçirən müəllif əsərlərində elmlə poeziyanın gerçək vəhdətinə nail olmuş, intellektual şeirin bariz nümun ələrini yaratmışdır.

**ISBN 978-9952-34-718-0**

© Əli Şirin Şükürlü, 2011
© "Şərq-Qərb" Nəşriyyat evi, 2011

downloaded from KitabYurdu.org

## 2005-ci ildən sonra

# YOXOLMA



downloaded from KitabYurdu.org

# yoxolma
## *(şeir – esse)*

pilləkənlərlə qalxırsan 3 - cü bayıl küçəsinə
dayanıb nəfəsini dərirsən hərdən. azaldığını
görüb pilləkənlərin sevinirsən. bir az sizif
sevincini, bir az da kədərini yaşayırsan –
düşündükcə sabah yenidən bu pilləkənlərin
yolunu gözlədiyini: üzü aşağı və üzü yuxarı.
- bəs yükün hanı, qardaş?
- özüm - özümə yükəm,
nəyimə gərəkdi o daş.

çevrilib geri baxdığın zaman düzxətli
yaşadığını düşünürsən. görmüsən fantan
vuran su necə qalxar, qalxar, sonra
qövs cızıb havada, qayıdar sıçrayıb qalxdığı yerə?
çevrədi ömrümüz çevrə - içi boşluqla dolu:
sonsuzluq da demək olar boşluğa təsəlli üçün.

içi ərzaqla dolu, cürbəcür məişət əşyaları
satılan marketə dönürsən yolüstü.
nədənsə, talonlarla ərzaq satılan günləri
xatırlayırsan. maraqlı, bir az da kədərli



downloaded from KitabYurdu.org

mənzərələr canlanır gözlərin qarşısında:
basabas, əsəb gərginliyi, növbəsiz keçsin deyə
qonşu uşağını özüylə götürüb gələn qadınlar…

dəyişib çox şey, - söyləyir sənə indi marketdəki
alıcıların azlığı. fəqət dəyişmələrin mahiyyəti
maraqlandırar səni həmişə. "heç nə yox olmur,
hər şey dəyişir". dəyişirsə, deməli, həm də
yox olur bir az. itir dəyişmələrin içində, necə ki
insan öz içində itər. yox olmursa heç nə, demək,
on il, iyirmi il, otuz il əvvəldə varsan hələ də.
varsan sevincinlə, varsan səsinlə, varsan
ağrılarınla, varsan sevginlə, varsan kədərinlə,
varsan… varsan… varsan…
sadəcə dəyişib səsin də, dəyişib sözün də,
dəyişib kədərin də, dəyişib sevincin də, dəyişib
sevdaların da, dəyişib… dəyişib… dəyişib…
yox olub, yox olub, yox olub bir az həm də
dəyişmələrin içində.

dolub - daşır evinin yanındakı zibil qutuları
yandırılmış zibilin qoxusu yayılıb ətrafa.
qapınıza təzəcə öyrəşən ağappaq pişik
zilləyib gözünü sənə. əvvəlcə ürkək baxır,



downloaded from KitabYurdu.org

mülayimləşir baxışları sonra; tanıyır səni
deyəsən. “bu pişiyin daha çox sevgiyə ehtiyacı
var. ev pişiyi olub yəqin ki” – o gün söyləmişdin
uşaqlarına.
dünya insan üçün yaranıb təkcə, daha çox
insanın yaşamaq haqqı var elə bilirsən?
elə bilirsən yaşamaq insanın, ölməksə
hamının haqqıdır?

deyirlər gülümsəyirmiş atam öləndə,
təbəssüm çökübmüş çöhrəsinə.
Məmmədhüseyin Mərdan – üç ayın içində
tükəndi gözgörəsi. bir kəlmə danışmadı
ölümdən şair olsa da.
bir gecəlik ömrü olan çiçəklər, ömrü saniyələrlə
ölçülən kəpənəklər var. təkcə insana qənim
kəsilib zaman – o da ki öz ixtirası.

soyunursan tozlu çəkmələrini. sığınırsan
təsəlli dolu mənzilinə, yaşayırsan sabahın
ümidiylə. pilləkənlər darıxır…
… gözləyir yolunu silinmiş tər - təmiz
çəkmələrin. əşyalar daha tez isinişər
biri - birinə.



downloaded from KitabYurdu.org

bir gün silər pilləkənlərdən ayaq izlərini
qəfil başlayan yağış, - xəyanət edər sənə.
sən yağışı sevirdin axı. bəzən sevgin,
bəzən də nifrətin tanıdar sənə dünyanı;
yəni insanı, yəni otu - çiçəyi, yəni
iti - pişiyi, yəni yağışı - qarı, yəni
sevib - sevmədiyin nə varsa onu.
silinər pilləkənlərin yaddaşından ayaq səslərin.
sonra unudularsan sən də. zaman hər şeyə
qıyar – gözəlliyə də.

3 - cü bayıl küçəsi olmayacaq nə vaxtsa. elə
pilləkənlər də.elə sən də. amma hardasa yenə addım
səsləri eşidilər. sevər ayaq izlərini hansısa pilləkənlər.
sizif sevinci, sizif əzabıyla pilləkənləri qalxıb - enərlər.
- bəs yükün hanı, qardaş?
- nəyimə gərəkdi o daş!

… - 15.08.2009.



downloaded from KitabYurdu.org

## yay yağışı

əvvəl baxışlarım, sonra əllərim toxunur
qəfil başlayan yay yağışına.
nəyəsə təəssüf edirmiş kimi yırğalanır
ağacın budaqları.küsməyi
olur ağacların da.son dəfə qüssəli gördüm
meyvə ağaclarını ata mülkündə.

kədərə yoluxanlar bilirlər üzdə təbəssümün
nə olduğunu, həsrətə
yoluxanlar uzun-uzun yolların-yolçuluğun.
atıb gedə bilmədim
doğulduğum məmləkəti vətəndir deyə.
indi qızım yaşayır qəribliyi
əvəzimdə, mənsə ayrılıqları. və hələ də
alışa bilmirəm məkanlara-
ayrılıq havası zümzümə edən: "yola düşür.
qarşılayın.yubanır və sairə".

inanın, hər şey ötəridi  sürətlə ötüb keçən qatarlar,
limana bir daha
dönməyən gəmilər kimi: heç nə və
heç kəs təkrar olunmur-



downloaded from KitabYurdu.org

yox olur səmada
nöqtə şəklində gözdən itən təyyarələrtək.
inanın həm də ömrün
o biri üzünün var olduğuna, inanın
gözəl rəsm əsərləritək bütün
cinayətlərin də həyatın mənasızlığından doğulduğuna.
mən artıq inanmışam
sevgiyə, həsrətə, sevincə, kədərə- bütün faniliklərə,
yəni həyata yoluxandan;
sanki bütün yolları geri dönmək üçün gedər adamlar.
keçilən yollar var
bir də geriyə qayıtmaq olmur, elə bil uzanan kəndirdi
həmən dartıb yığarlar.

250 km yol qət etdim ata yurduna, yay yağışına.
ilk dəfə sevmədim yay yağışını,ilk dəfə darıxdım ata
mülkündə.sahibsiz bağın ağacları meyvə gətirməz,
hüzn aşılayar yay yağışları.

dəyişər libasın yay yağışları geriyə dönər,
yerdən göyə yağışlar yağar.
bir də qayıdaram ata yurduna,
bir də qayıtmaram yay yağışına.
... – 07.09.2010



downloaded from KitabYurdu.org

* * *

yaşımın üstünə yaş gəlib
baxdım ki
ay allah əllərim
hələ də körpə qalıb

bu əllərlə... şeir yazdım
bu əllər səni oxşadı
bu əllər bir az atamın
bir az da
anamın əllərinin oxşarı

içində əyri – üyrü xətlər
içində keçmiş gələcək
qıyma əllərimə allah
deyəsən
bu körpə də öləcək

24.02.2009



downloaded from KitabYurdu.org

# xoşbəxtlik ehtimalı

*Xanım Vislava Şimborskaya*

səhərdi. pəncərədə yağış damcıları,
dəyişir şəklini şüşənin təmasından;
süzülür pəncərə şüşəsi boyu şırım-şırım,
yıxılır pəncərədən – dam. dam. dam... –
danışır hər kəslə öz dilində.

*birinci damcı:* bəzən ilk dəfə olduğun məkan
yaddaşını silkələr. az qala
ürəyin ağzına gələr. sanki tanış səhnə
təkrar olunacaq elə indicə. harda, nə vaxt
görmüşəm – fikirləşərsən, tapa bilməzsən.
çünki yaddaşa köçən həm də sənsən.
bəlkə min il, bəlkə milyon il əvvəlki keçmişindi
dünyanın yaddaşında indi oyanan.
yıxılır pəncərədən damcılar – dam. dam. dam...

*ikinci damcı:* gəl sənə zamanı göstərim; zaman –
artıq yaşı çoxdan ötmüş
şikəst qızının qayğısına sığınan, gözləri hələ də
yol çəkən, qocalıb yumağa dönmüş
qarının üzündəki qırışlar şırım-şırım.
yıxılır pəncərədən damcılar – dam. dam. dam...



downloaded from KitabYurdu.org

*üçüncü damcı:* gəl sənə kədər göstərim
qürurla qoşa; Mübariz İbrahimovun
bir üzü gülən, bir üzü ağlayan
anasının gözləri; qəm. qəm. qəm...
yıxılır pəncərədən damcılar – dam. dam. dam...

*dördüncü damcı:* adamlar var üzü gülər,
gözü gülər, qəlbi qocalıb –
taleyi kəm, bəxti kəm.
yıxılır pəncərədən damcılar – dam. dam. dam...

*beşinci damcı:* gəl sənə sevgi göstərim
dərdlə yanaşı; Fərizə-İlham...
yıxılır pəncərədən damcılar – dam. dam. dam...

*altıncı damcı:* yum gözlərini – yox oldu dünya?
elə gördüyün qədərdi dünya, gördüyün qədərdi.
qəm yemə, yaşananlar hamısı qədərdi, qədərdi.
gül kimi səadəti ömründən dərdi, dərdi
bir qara sevda dərdi, bir qara sevda dərdi.
ömür – şam. şam. şam.
yıxılır pəncərədən damcılar – dam. dam. dam...



downloaded from KitabYurdu.org

*yeddinci damcı:* gəl sənə xoşbəxtlik göstərim,
həmişə bədbəxtliklə əkiz doğulur.
xoşbəxtlik...
daha doğrusu, xoşbəxtlik ehtimalı; gah artar, gah
azalar, gah da yox olar.
istəklər – n, reallığı – r. xoşbəxtlik ehtimalı – p
bərabərdir reallığın istəklərə nisbəti: p= r/n.
istəklər artıqca azalar xoşbəxtlik ehtimalı,
azaldıqca artar.  belə ki, atılma üzü yuxarı,
başın üstə - dam. dam. dam.
yıxılır pəncərədən damcılar – dam. dam. dam...
yaşa ömrünü, yaşa fərqinə varmadan
payına düşən ömürtək, olduğu kimi.
yaşa ya qəm, ya da dəm.
yıxılır pəncərədən damcılar – dam. dam. dam...

dam. dam. dam... – yıxılır pəncərədən damcılar.
bu həmən yağışdı – damcılar, damcılar, damcılar,
bu həmən yağışdı min ildi, milyon ildi şahidlik edər,
danışar hər kəslə öz dilində, danışar ya sevgi,
ya qəm dilində – dam. dam. dam...
sən işində ol ömür: dam! dam! dam!..

... – 31.03.2011



downloaded from KitabYurdu.org

***

bir bazar günü
biz üç dost
iki şair bir aktyor
Lider TV-nin yanındakı
kafenin həyətində oturub
yemək yedik allah verəndən
bir az da araq içib
söhbət elədik sərxoşsayağı

gün keçdi...
yoldan maşınlar ötdü
yanımızdan adamlar
içimizdən zaman...



downloaded from KitabYurdu.org

# A = B = C
## *(şeir-esse )*

### A

necə də bir-birinə bənzəyər hər şey:
insanlar, ağaclar, quşlar, çiçəklər,
şəkillər, güzgülər, qapılar, pəncərələr...

stəkandan qurtum-qurtum içilən su
qurtum-qurtum azalar.
insan sudu-üzü aşağı axar, damla-damla tükənər;
indiki halı şəklində
görünsə də keçmiş halıdı gələcəyin.
dəyişən halıyla süzgəcdi yaranan
nə varsa bu yer üzündə, zaman qərar tutmaz,
gələcək keçib ondan
süzülər keçmişə,

insan ağacdı: yarpaq-yarpaq tökülər ,
ağac insantək yarpaq-yarpaq ürək
itirər. insan quşdu-uçmağı sevər ,
nə qədər uzağa uçsa da yenə ucalıqdan
yorulmağı var. daima ucalıq qorxusu yaşar,
çıxa bilməz yerin cazibə
qüvvəsindən.



downloaded from KitabYurdu.org

nə az, nə çox, cəmi 4-dü insan: dolar boşalar,
axar azalar, alışar yanar,
ovular çat-çat olar. son da yenə torpağa dönər;
ya bərk, ya da maye şəklində.

Avstriyada meyitləri yandırmağa başlayıblar –
söyləyəndə yaman güldürmüşdün
qohum- qardaşı. hərdən adamın içində
özünə cəza vermək tələbi doğur,özünə
hökm çıxarmaq istəyi olur. bəzən lap yanıb
kül olmaq keçir könlündən.
işdi yandırarsalar meyitimizi, eybi yox, oğul, –
70 kilo azalar cənazəmdən.
kənd evimizdən qəbirstanlığa təxminən 1 kilometr olar.

**B**

insan bir az da qapıdı, açılıb-örtülər.
açılıb-örtülən qapılardan evlərin təngnəfəsliyi
duyular. döyülər qapılar, elə hey döyülər.
ayrılıqdı, görüşdü, həsrətdi, sevgidi,
nifrətdi qapı. insan həm də pəncərədi –
görünər hər iki tərəfi.



downloaded from KitabYurdu.org

pəncərə – hüdudsuzluga çıxışın işarəsi,
həyatın dördbucaqlı mənzərəsi. girişdi,
çıxışdı, şəkildi, güzgüdü pəncərə.
bir də hüdudsuzluq və bir də məhdudiyyətdi
pəncərə.

hər şey bir-birinə bənzər, hər şey bir-birinin təkrarı,
hər şey bir-birinə
bərabər həm də: A  B-yə, C  B-yə bərabərdisə,
demək, C  A-ya da
bərabərdi: A = B = C.

ağac həm də quşdu, quş – balıq, balıq- su,
su – torpaq, torpaq- insan,
insan- idrak, idrak- allah, allah- kainat.
göy üzü- dəniz, ulduzlar - çiçək, çiçəklər-kəpənək,
kəpənəklər- uçuş;
uçuşun nə olduğunu heç nə anlada bilməz
kəpənək uçuşu qədər.
.................................................................................................

budaqdan asılıb yırğalandıqca uçmaq keçər
könlündən, amma unutma:
budaq qırıla da bilər. yıxılmaq uçmağa bənzəsə də
ölümü də xatırladar.



downloaded from KitabYurdu.org

qırılan yeri budağın ayrılıqdı, ağrıdı, acıdı,
həsrətdi- anlaya bilsən.
iki əli, iki ayağı üstə düşər yıxılan adam bəzən –
özünü qoruma instinki.
əyilib iki əli, iki ayağı üstə keçər
ayaq üstə keçə bilmədiyi yerdən.
heyvan bir az da əyilmiş şəklidi insanın.
pəncərə canlı şəkildi sanki asılıb otaqdan.
güzgü şəklin hərəkət halı.

qartal duruşu ilə Azəbaycanın xəritədəki şəklinə
bənzər Ramil Səfərov.
bağışla, qardaş, kövrəlməkdən savayı
əlimizdən nə gəlir ki, “ cənab leytenant”
mahnısı oxunan zaman – özü də oxuyan
Şəmistan ola – bir də səni sevməkdən
başqa.
ayrılıqdı, həsrətdi, nisgildi,ağrıdı,acıdı insan.

## C

hər şey bir-birinin təkrarı, hər şey bir-birinə bənzər,
hər şey bir-birinin içində
həm də, bir-birinin altçoxluğu: B  A-ya, C  B-yə



downloaded from KitabYurdu.org

daxildisə, o zaman C A-ya da
daxildi – riyazi məntiq.
sevgi insanın içində, xəyanət sevginin, ağrı xəyanətin,
acı ağrının, həsrət acının.
əgər kimsə səni sevdiyini söylərsə,
bil ki, xəyanət də istisna deyil. kimsə nifrət
edərsə, nə zamansa sevə də bilər.

zamanı daha çox zamana şahid köhnə saatlar
anladar – fırlasan oxlarını geriyə
döndərə bilməzsən yaşananları. yaşanmış sevdasan,
zamantək geri dönməzsən;
keçmiş zamansan artıq.
sevgi ismarıcları süni yaddaşlarda,
neçə baytlıq sevgi  uyuyar elektron xatirələrdə;
yerini verməz saralmış vərəqlərdəki
sevgi məktublarının.texniki tərəqqi – ülvi
hisslərin qənimi.
süni intelektin zamanı gəlir;
əlvida sevgilərə, əllər yuxarı!

mübarizə varsa, məğlubiyyət də var.
qələbə - rəqibi məğlub etmək yox,
öncə özünə qalib gəlmək məharətidi.
mübarizə varsa, məğlubiyyət savaşın içində,
qələbə məğlubiyyətin.



downloaded from KitabYurdu.org

# A = B = C

hər şey bir-birinin içində, hər şey bir-birinin bənzəri,
hər şeyin öz
tutumu amma. heç nə tutumundan artığını
götürməz, insan da.
ağaclar, quşlar, otlar, çiçəklər, ulduzlar,
səma, sevgi, nifrət, həsrət,...,
allah insanın içində tutduğu qədər,
dunya allahın içində.

hər şey bir-birinin təkrarı, hər şey tək-tənha amma,
hər şey çox həm də:
dolub - daşar stəkandakı su kimi, axar zamantək –
geri dönməz, azalar
insansayağı - asta-asta hopar torpağa;
A-lardan, B-lərdən, C-lərdən birinin bətnində
E L Ə
A-lardan, B-lərdən, C-lərdən birinə dönər.

... - 25.05.2010.



downloaded from KitabYurdu.org

# kəsişmə nöqtəsi

baxışların divara dəyib üstünə qayıdar
əlin heç bir işə yatmadığı
vaxtlarda.gözlərin hansısa şəkilə,
ya da yazıya sataşarsa qayıdıb
dönə-dönə baxarsan, oxuyarsan özündən
asılı olmadan.nəhayət,
bezərsən, qaçırarsan baxışlarını –
əsiri olarsan yarımçıq xatirələrin.

paralel düz xətlərin heç zaman
kəsişmədiyi müstəvilər var ki
axtarsan bütün əşyalar arasında
bərabərlik işarəsi taparsan.
qarşında bütün yolların görüşdüyü,
sıxılıb bir nöqtəyə çevrildiyi məkan var ki
bu məkanda o, bütün yollarının kəsişmə nöqtəsidi –
hara üz alsan da
ondan keçib gedərsən.arxanda səni hələ də
dəlicəsinə qısqanan
qadının – yəni hər bir kişinin
öyünə biləcəyi bəxtiyarlıq.



downloaded from KitabYurdu.org

zamanlar olub ki
yolların kəsişmə nöqtəsində diz çöküb
qandalları öpüb qadınlar
zamanlar olur ki
yolların görüş nöqtəsi ayrılıq nöqtəsi olur.
dikilir yollara gözlər...

gözlərin dikilib yorulduğu nöqtələr,
bu nöqtələrdə sevişən yollar var ki
yalnız baxışların keçər, sonra yığar özünə
yolları qayıdar gözlərinə.
yorğun baxışlar var ki
təkcə kədərli nəğmələr pıçıldar:
üstünə çiçək düzülmüş daşlar
bir çiçəklik ömür yaşayar.

... – 29.07.2010



downloaded from KitabYurdu.org

# 0 = 1
## *(şeir – esse)*

## 0

- niyə öldürmürsən məni? sən ki qatilimsən mənim.
- ölünü necə öldürüm, sən ki çoxdan ölmüsən.

pilləkənin yanında tələsik ayrıldı onunla
dümağ libasa bürünmüş pirani qoca - ağappaq
saqqalı vardı. əlini əlindən üzüb əvvəlcə ağ çiçəyə
döndü bir gül kolunun üstündə, sonra kəpənək
uçuşuyla qeybə çəkildi.

oyanıb çarpayının qırağında oturdu Vahid (1).
sanki yuxudan yox, gerçəklikdən oyanmışdı O (Vahid).
yuxu indi gördükləri idi elə bil.
düşüncədən məhrum idi, yox idi O, var ola - ola,
həm də var idi axı deyəsən yox ola - ola.
gözü pəncərəyə sataşdı; hər iki tərəfində gerçəklik.

yuxu – pəncərə şüşəsi; gah bu, gah o üzündəsən:
bir tərəfi divar sərhədlər, bir tərəfi sonsuzluq.
pəncərə önündəki gül kolu bu məyusluğuyla
nə düşünər görəsən
varlıqla yoxluğun itən sərhəddində.



downloaded from KitabYurdu.org

## 1

0 = 1: sevir bu bərabərliyin fəlsəfəsini; riyazi
qaydanın harda pozulduğunun fərqinə varmaz
isbat etdiyi zaman:
bir ədədinin sıfır üstlü qüvvəti vahidə bərabərdir: $1^0 = 1$;
bir ədədinin bir üstlü qüvvəti də: $1^1 = 1$.
bu iki bərabərlikdən $1^0 = 1^1$, bu uyğunluqdansa
0 = 1 alınar. yoxluq varlığa, varlıq yoxluğa dönər.
varlıqla yoxluğun itər sərhəddi.

## 0

yoxluq özü də varlıqdır, var olmaqdır
nəyinsə dəyişilmiş forması olsa da belə.
sıfır yoxluq deyil, varlıqdır əslində.
məsələn, sıfır dərəcəli temperatur
yoxluqdan deyil, varlıqdan xəbər verər,
elə mənfi dərəcəli temperatur da;
üşüdər adamı, elə üşüdər ki, hiss edərsən
şaxtalı havanı vücudunda,
hiss edərsən varlığını yoxluqda, yoxluğu varlığında.
varlıqla yoxluğun itər sərhəddi.
var olar, var olar hər şey yoxluqdan o yanda belə
sıfır – varlıqla yoxluğun görüş nöqtəsi. sıfır –



downloaded from KitabYurdu.org

iki sonsuzluğun vida nöqtəsi; üzü aşağı mənfi,
üzü yuxarı müsbət sonsuzluq – üst - üstə düşərlər
simmetrik olduqlarından – varlıqla yoxluğun
itər sərhəddi.

## 1

zavalı ilk nəğməsiylə gələn qu quşunun
ölümü nəğməylə başlayıb, nəğməsi ölümlə
bitər. ilk nəğməsi elə son nəğməsi olar –
doğumla ölümün itər sərhəddi.

görərsən dərin bir zəkadan doğan elmi kəşf
ölüm kabusuna, ölümçün yaranan silah
ləyaqət rəmzinə dönər –
olumla ölümün itər sərhəddi.

zir - zibil vurğunu milçəklər şirəyə də gələr,
qonub zərif dərinin üstünə misilsiz bir
gözəlin qanını sorar.
nifrətdən deyil, sevgidən sancar arılar
nifrətdən yox, sevgidən ölər bal arıları.
sevgi bitən yerdə nifrət, nifrət bitən yerdə
sevgi başlayar bəzən. bəzənsə sevgidə nifrət,



downloaded from KitabYurdu.org

nifrətdə sevgi cücərər asta - asta, həzin - həzin...
sevgi ilə nifrətin itər sərhəddi.
sular da torpağın üstü ilə axar. nə qədər saf,
nə qədər təmiz olsa da yenə torpağa
söykənər, torpaqda bitər. nə qədər dərin
olsa da çaylar dibi lil, palçıq olar;
islanmış torpaq şəklində -
saflıq çirkaba çevrilər, itər gözəlliyin sərhəddi

## 0

hər iki gözünün kənarında halqa şəklində
qara xalları olan ağ rəngli dovşan balası
gətirmişdi o gün rayondan gələn bacısı oğlu.
o dovşan balasının azadlığı bahasına kimsə
4 manat qazanmışdı Bakı - Salyan şosesində.
ayrılıqlardan yazdığı zaman
ağappaq masanın üstünə düşən bir damcı
dumduru göz yaşının sarımtıl dairə şəkilində
masaya hopduğunu xatırlamışdı Vahid.
"vətənin şəklini çək" – dünən axşam deyəndə
oğluna yaşadığı evin şəklini çəkirdi uşaq
həyəti bağ - bağatlı.
vətən nədir ki? – sərhədləri cızılmış
bir neçə... kvadrat metr torpaq sahəsi, əgər



downloaded from KitabYurdu.org

adı çəkiləndə evinin, qəbrinin, sevginin, nifrətin,
həsrətin... şəklini çəkə bilmirsənsə
“ah vətən, vətən!” – deyərdi qonşu kənddə
ərdə olan bibisi hər dəfə doğulduğu kəndə
girdiyi zaman. qürbətə getdim – söyləyəndə
təəccüblənərdi o vaxtlar Vahid. qadınçın
doğma kəndin sərhəddində bitərdi vətən, - sonralar
xatırlayardı, - bibinin bir kəndlik vətən
həsrətində itərdi bütün sərhədlər. hər evdə,
hər kənddə, hər şəhərdə bitib, hər evdən, hər
kənddən, hər şəhərdən başlamalıdır əslində vətən, -
düşünür Vahid, - başlayıb bitməməlidir,
bitməməlidir sonsuzluqda belə
insanın sevgisi, nifrəti, həsrəti kimi...

**0 = 1**

yenidən yuxu aparmışdı Vahidi: yer göyə, göy
yerə qarışır, torpaq suların altında qalır,
olum ölümə, ölüm oluma, sevgi nifrətə, nifrət
sevgiyə dönür, ağ qara, qara ağ olur.
uçur, uçur, elə hey uçur hər şey kəpənək
uçuşuyla ağappaq çiçək şəklində - varlıqla yoxluğun
itir sərhəddi.



downloaded from KitabYurdu.org

qalxıb çarpayıdan əvvəlcə divara söykəndi Vahid,
sonra yavaş - yavaş pəncərəyə yaxınlaşıb
üzünü şüşəyə söykədi. sonra açıb pəncərəni
götürdü aradan sərhəddi. sonra üz - üzə
qaldı O, pəncərə önündəki gül koluyla
varlıqla yoxluğun itən sərhəddində

... – 02. 03. 2010



downloaded from KitabYurdu.org

# dama – dama

masanın üstündə qeydiyyat kitabçası. vərəqləri
dama – dama. hərflər rəqəmlər sığmır damalara
xəbər verir dünəndən bu gündən sabahdan
damalar dördbucaqlı – veriblər çiyin – çiyinə
hamısı eyni ölçülü

masanın səthi.masanın üstündə vərəqlər
divarlar qapılar pəncərələr... müxtəlif
ölçülü olsalar da sığınar bir – birinə
dördbucaqlı doğmalar.zahirən bərabər
görünər bəzən əşyalar.əslində ölçülər
acizdi fərqi hesablamağa

binanın damında hayandan baxsan
dördbucaqlı görünən çənin azalar suyu
dama – dama. tərk edər evini su özünə
yer axtarar.sonra yavaş – yavaş hopar torpağa
o dumduru suyun o səfil suyun hopduğu
yerlərdə izi bir parça palçıq şəklində
qalar.çox keçməz quruyar o da

bağlı qapılar arxasında yaşanan
o gizli sevdalar o sirli sevdalar



downloaded from KitabYurdu.org

nə oldu. o gizli sevdalardan o sirli
sevdalardan nə qaldı. azaldı bitdi
tükəndi damla – damla. bir damcı
göz yaşı qədər də izi qalmadı

yaranar yaşayar her şey eninə – uzununa
yaşayar üzü yuxarı yaşayar üzü aşağı
yaşayar bilmərik haralara daha – idrakın
gücü çatmaz əksini yaratmağa. azalar
fəqət azalar damla – damla
azalar dama – dama
hardan baxsan bir – birinə doğmalaşan
qəbirlər dördbucaqlı görünər: dama – dama

... – 24.02.09.



downloaded from KitabYurdu.org

# çay qırağında
## *(şeir-esse)*

çay qırağında oturub balıq tutur əmoğlu
tilova ilişib
çaydan təkanla çıxarılan balaca balıqlara sevinir uşaqlar
qarmaqdan ayırıram balıqları
koksündən qoparılan ürək tək çırpınır əllərimdə
təkcə gözləri cansız olur balıqların parıldasa da
zillənir bir nöqtəyə
baxa bilmirəm balıq gözlərinə
açılıb-yumulur agzı
qıyma mənə ağrıyıram – söyləyir sanki

balıq ay balıq buraxsam səni
yerinə yetirərsənmi arzularımı
amma istəyim yaman çoxdu
sən qızıl balıq deyilsən axı
onsuz da
ölümə məhkumsan əvvəl- axır

ovcuma süzülür ağrı
ağrıyır əllərim

öz ağrısına sevinən görmüsənmi…



downloaded from KitabYurdu.org

bəzən eyni nöqtəyə dikilir gözlərim
ağrı gözlərimdən keçib beynimdə gəzir
əllərimi alnıma söykəyib yumuram gözlərimi
yavaş-yavaş süzülür barmaqlarıma tədricən azalır
yox olur
yox
yox olmur qayıdacaq yenə də

hərənin öz doğma ağrısı var
əlləri gözləri… ürəyi kimi
özü ilə doğular özü ilə ölər

ürəyim sancır
ağrı xatirələri oyadır xatirələr agrını
üzür məni xatirələr
sujetsiz filmə bənzər qarmaqarışıq hadisələrlə dolu
yumuram gözlərimi sönür xatirələr
qaralır ekran – filmin sonu titrdə ağrı
qaranlıqla birgə yox olur
yox
yox olmur qayıdacaq yenə də
qonacaq gözlərimə keçəcək ürəyimə süzüləcək əllərimə
hər dəfə yenidən yox olur
hər dəfə yenidən dogulur qəfildən peyda olur
ağrılar gözəl düşmən şəklində



downloaded from KitabYurdu.org

heç öz ağrısına bir azca vurulan görmüsənmi…

şəfəq çökür. qayıdır əmoğlu. torbada ölü balıqlar.
tilova ilişib köynəyi zorla ayırır
"öz tilovuna düşmüsən deyəsən
nə böyük balıq tutmusan əmoglu" –
zarafat eləyir İlqar xaloğlu
duzlu alınır

axşam. eyvanda oturmuşuq
dağın döşündə yamyaşıl agaclar
çayda ayın əksi.dayanıb ay güzgüyə baxır elə bil
çay axır axır
apara bilmir amma özüylə ayın əksini
axır eyni səmtə axır axır
elə bircə yolu var o da üzü aşağı

yaşayıram dörd tərəfə tələsə- tələsə
yaşayıram dörd tərəfə azalıram eyni səmtə

yumulur gözlərim...
bir gün sonra bilirsən nələr oldu nələr
ah bir gün sonra
bir gün sonra toyuqlara yem oldu o balaca balıqlar

...- 04.07.2008



downloaded from KitabYurdu.org

# köhnə paltar

köhnə paltarlarda həyat əlaməti var.
saçları havaya dağılmış
əlləri ilə donunun ətəyini dizləri arasında
zorla saxlayan və
azca yığılaraq geriyə qanrılmış
gözəl qadın kimi görünür
külək. külək öncə səsdi – eşidirsən.
səs öncə sükut – dinləyə
bilirsən o musiqini. ütüsü pozulmuş
paltarım yaşadığımdan
xəbər verir hələ də. hər parçasında yaşanmış xatirələr.

sevincim çox olub yoxsa kədərim
deyə bilmərəm. amma
ölüncə sevmişəm – bunu yəqin bilirəm.
nifrət də etmişəm
amma sevgim nifrətimi üstələyib həmişə.
yəqin ki savab
işlər də görmüşəm. olub ki günah da işlətmişəm. həyatı
sevsəm də intihar barəsində də düşünmüşəm – necə
ölsəm gözəl görünərəm görəsən. işə bax: ölümündən
sonrasını da düşünər adam. sevgi bir az da mərhəmət



downloaded from KitabYurdu.org

umar.ölümündən sonra da həyat axtarar.bəzən
cismindən əvvəl ruhu ölər adamın heç xəbəri
olmaz.ölümün estetikasından danışmaq istədim
bu an.akutaqava yadıma düşdü.fikrimdən vaz keçdim.

istəklərimlə reallığın üst – üstə düşmədiyi anlar
da çox olub."uyğunsuzluq" sindromunu yaşamışam.
qatil olmaq keçib könlümdən ola bilməmişəm.sonra
təzədən sevmişəm. sonra...

əvvəlcə heç nə.sonra azacıq təbəssüm bambalaca ümid.
sonra bir az.sonra bir az çox.sonra bir az da çox.
sonra hər şey – bir nöqtədən sonsuz sayda düz xətt keçər.
sonra... sonra bir qədər az. sonra bir az da az. sonra bir az.
sonra kədər ümidsizlik əsəb.sonra sonra yenə də
heç nə - paralel düz xətlər kəsişməz.
bir sevginin tarixşəsi:
əvvəlcə heç nə.axırda heç nə.yəni son və başlanğıc
eyni.çevrə başlandığı nöqtədə qapanar yəni.

mən hər gözələ yenilmədim qadınım
vallah yenilmədim.
mən sevgilərə yenildim.qürbətə yenilmədim.
mən vətənə yenildim.o vətənə ki orada sən varsan



downloaded from KitabYurdu.org

doğmalarım var. o vətənə ki orada başdaşı yazıları –
 xatirələrim var. o vətənə ki orada sevgilərim
nifrətlərim var.

hər sevgiyə də yenilmədim
qadınım vallah yenilmədim.
ağrısına acısına sevindiyim sevgilərə yenildim.

sevgiyə inanmır. bütün qadınları fahişə görmək
istəyir namussuz özünkündən savayı.
həqiqəti danır imansız. hamıya dələduz kimi baxır.

insanın içində mələk də var iblis də.iblis mələkdən
güclüdü təəssüf. görmürsən insan qanına susayan
siyasətbazları. vətən kəlməsini də nə vaxtsa uydurublar
əbləhlər – hakimiyyət qazansınlar fateh olsunlar...
təki allahın hamı üçün yaratdığından
daha çox mənimsəsinlər.

yollar yolçusu qardaş. ömür vaxtla yox
addımlarla ölçülər –
düzdü?!beləliklə neçə metr qalar ömürdən.
ömür məsafədi –
hər nöqtəsini sürünənlər fəth edər yalnız. sən addım –
addım itirərsən ömürdən yollar yorğunu qardaş.



downloaded from KitabYurdu.org

kim nə deyir desin.səs daha ilkindi. sudan da oddan da
torpaqdan da havadan da. səs də su kimi: ağrı gətirər
artıq olanda. musiqi səsi olsa da belə. indi şadlıq
saraylarında əvvəlcə səslə doydururuq adamları.
sonra da çeşid – çeşid yeməklərlə. yerli –
yersiz çıxışlar
da yerində. iclas salonlarında olduğu kimi. lap yarışa
bənzəyir. öhdəlik götürmüşük elə bil.

açığı mən pıçıltıları daha yaxşı eşidirəm.külək gözəl
qadın kimi görünür bu gün.külək nədirsə öncə
səsdi amma.səs öncə sükut.sükut musiqi.yaranan
nə varsa səsə qayıdar.sonda pıçıltıya dönər.səssizliyə
çevrilər. eşidirsən səssizliyi – pıçıltı pıçıltı pıçıltı...

mən yaxşı eşidirəm külək
yaxşı eşidirəm yağış
-------------------------------
yaxşı eşidirəm külli-aləm
yaxşı eşidirəm pıçılda pıçılda pıçılda...

...- 03.09. 09



downloaded from KitabYurdu.org

# bir növ sevgi haqqında

hər şeyin bir dönüş nöqtəsi, qayıtdığı məkan var
"OL" söylənən fəzada.
"OL"dan "O"ya üz alar yaranan,
"OL"dan "O"ya dəyişər hər an.
O-sıfra, L-vahidə bənzər;
biri çevrəvari, biri tamlıq,
bütövlük-kamillik mücəmməsi.
başladığı nöqtəyə - "O"na, ya da "O"ra qayıdar
yaranan nə varsa
çevrə cızaraq, vahidə dönər.
hər şey bir-birinə yaxın və uzaq "OL"dan "O"yadək –
arada sonsuzluq.
hətta bir-birinə ən yaxın iki nöqtə arasında məsafə
sonsuzluq adlı – istənilən
iki ədəd arasında həmişə üçüncüsü var –
üst-üstə düşəndə yox olar məsafə.
hər şey içindən dəyişər əvvəlcə;

mən sənə çatmaqçın dəyışıb içimdən
sonsuzluq aşdım.
itər arada məsafə. səndən mənə,
məndən sənə sevgi sızar:



downloaded from KitabYurdu.org

susss...sss... kiri-kiri...
indi də
gözlərimizlə dinləyək bir-birimizi.

“xoşbəxtəm”, “xoşbəxtəm”, “xoşbəxtəm” –
pıçıltılar sürüşər
sükunət arasında dəyər divarlara. divarlar həyan olar
can verən pıçıltılara. nə vaxt dinləsən divarları
kövrək, həzin, doğma, yad səslər eşidilər.
səndən mənə, məndən sənə sevgi sızar.
məndən sənə, səndən mənə kədər qalar – gülər üzlü.

böyüyər məsafə, sonsuzluq dolar yenə araya.

sonsuzluqda yagışlar yağar –
hüzn aşılayar sevinc qarışıq. qüssəyə
qərq edər dağ-daşı, oyanar otların,
çiçəklərin yaddaşı, - daşı özünlə
sevinci, daşı özünlə kədəri, daşı, daşı.
sonsuzluqda qar yağar, çovğun başlayar –
qəlblər üşüyər. susayar
məsumluğa canavarlar, canavar xislətlilər.
güclülər qovduqca zəiflər
qaçar. qısqırdar güclüləri, qaçırdar zəifləri
yaşamaq instinki.



downloaded from KitabYurdu.org

sonsuzluqda sərin meh əsər, ləpələr pıçıldaşar,
nə qədər zərblə
çırpılsa da sahilə dalğalar- keçilməzlikdən və
qaçılmazlıqdan
xəbər verər.
sonsuzluqda gün çıxar, qaranlıq düşər,
zavallı quşcığaz
pəncərəni döyəclər: "cik-cik-cik" –
"fanilik.fanilik.fanilik".
günlər, aylar, illər qırılmış güzgü – çilik-çilik.

sonsuzluqda sevgi oyunu başlar.
sevgidən çox sevgi haqqında
xəyalların əsiri olarlar. sevgi oyunu quraşdırarlar.
qadınlar leyli,
kişilər məcnun olar. dastanlar yazılar, nəğmə qoşular.
sonsuzluqda körpələr doğular, insanlar ölər.
doğulanlar ölər,
ölənlər yenidən doğular; sakini olar yeni aləmin
ya tikan, ya ot,
ya insan, ya it şəklində.
sonsuzluqda sevgi ilə nəfəs alıb, qüssə ilə
köks ötürər binalar; dəyişər
içindən, dəyişər çölündən, dəyişər içindəkilər,
dəyişər çölündəkilər.



downloaded from KitabYurdu.org

sonsuzluqda evlər tikilər, kəndlər,
şəhərlər xaraba qalar. gülləyə
tuş gələr qocalar, qadınlar, körpələr.
mərmiyə çevirib körpəsini
cihada qalxar hicablı müsəlman qadınlar.
sonsuzluqda azadlıq adıyla fəth edilər ölkələr.
torpağın hamının,
hamının torpağın olduğu unudular.
sonsuzluqda inqilab edər kütlələr,
dəyişər hökmdarlar – azadlıq
istər adamlar. amma azdadlığı sevməz başçılar.

daha nələr , nələr olar sonsuzluqda...
mən "SƏN"i sevərəm.
hər şey "O"na dönür,
"SƏN" mənə, mən "SƏN"ə qayıdaram.

... – 26.02.2011



downloaded from KitabYurdu.org

## ömür sürəti

həyat – surətçıxaran aparat sanki, qapağı altında
tale yazısı,
bir parça ağ kağız tək udar adamı,
udar – çevirər, köçürər o biri üzünə
son nöqtəsinədək
qapağı altındakı tale yazısın,
sonra ötürər sonsuzluğa, ötürər asta-asta
bir üzü ağ, bir üzü qara.
hara, nəyə baxsan bir həyat macərası, yəni bir
həyat modeli.

deyirəm
kaş imkanın olaydı, oğul,
ağ mərmərdən baş daşı qoyaydın məzarım üstə və
qara hərflərlə yazılaydı sadəcə adım, bir də
doğum tarixi.
yalnız doğum tarixi. çünki, axı mən ölənlərdən
deyiləm, oğul.
vallah, ölənlərdən deyiləm, dostlar.
ax, zalım dostlar, zalım dostlar!
demədiniz, demədim – deyilməyən sözlər qaldı
ömür əhvalatından sonra, nakam sözlər.



downloaded from KitabYurdu.org

keçdiyin yolları(s) yaşadığın zamana(t) bölsən
ömür sürətini(v) tapa bilərsən:
v=s/t – bir adı “ömür yorğunluğu”.
gedib, gedib, yorulub qayıtdığın yollar var ha
üst-üstə gəl onları da
artar ömür sürəti, lap uçuşa bənzər.

bir çiçək qopub düşdü otağımdakı gül kolundan.
yoruldu deyəsən, yoruldu – dəqiq. asta-asta
enirdi yorğun.
yox, uçurdu. uçurdu asta-asta yıxıldı döşəməyə,
artıq ömür sürəti – sıfır.
tarazlıq halında – budağın, kolun üstündə
yaşayar çiçəklər,
yaşayar güllər. yerindən qopdusa, elə hərəkətdə ölər,
ömrü tükənər
ətrini, gözəlliyini itirməsə də.
gördünüz; hərəkətdə ölüm,
ölümdə gözəllik - bu da bir həyat macərası,
yəni bir həyat modeli, dostlar.
ax, zalım dostlar, zalım dostlar,
demədiniz demədim də!

hara, nəyə baxsan bir həyat macərası.
hərəkətdə yaşayar



downloaded from KitabYurdu.org

çiçəkdən, güldən fərqli– təsadüfi prosesdi insan.
bilməz onu nə gözləyər t(te) andan sonra, bilməz ki...
bilməz ki
başına nə gələcək bu zaman zəncirinin
bir zaman kəsiyində.

biri hərəkətdə yaşayar, o biri sükunətdə.
biri sükunətdə ölər, o biri hərəkətdə.
çiçəyin qırılıb keçdiyi yoldu – çiçəyin öldüyü yerdi
insan həyatı. bu da bir həyat macərası, həyat modeli.

hara baxsan, nəyə baxsan cürbəcür həyat macərası,
amma eyni həyat modeli, dostlar, - düzdür?
ax, zalım dostlar, zalım dostlar,
demədiniz demədim a!

... – 13.06.2011



downloaded from KitabYurdu.org

## avqust qeydləri:
## dəniz, göy üzü, gözlərim və güzgü

*

lənkəran.  nərimənabad qəsəbəsi - əvvəllər sarı
deyərdilər bu qəsəbəyə. dənizə üz tuturam, ayağıma
gəlir ləpələr. sarılıram dənizə, qoynuna alır məni.
oxşayırıq bir-birimizi; necə də oxşayırıq bir-birimizə.
maşının güzgüsündə yarımçıq dəniz, dənizdə
yarımçıq mən, məndə yarımçıq göy üzü. dəniz
güzgüyə bənzəyir, mən dənizə, göy üzü mənə.
dəniz güzgüdən kiçik, mən dənizdən, göy üzü
məndən. hər şey bir-birinin altçoxluğu.
heç nə tükənmir ki...

*

lənkəran – masallı şosesi. yanaşı dəmir yolu xətti
uzanır, uzanır və hardasa şosseni ya çarpaz,
ya da perpendikulyar kəsir. paralel relslərin üstündən
rüzgar kimi sürətlə gah düz, gah əyri xətt boyunca
ötüb keçən qatarlar
sanki özündən sonra
böyük bir bərabərlik işarəsi cızar. bərabərlik işarəsi –
zahirən hər şey bir-birindən fərqli görünsə də.
həyat çox anlaşılmaz...



downloaded from KitabYurdu.org

*

masallı. istisu.
çayla yanaşı gedirəm. o, sürətlə axır,
mən pıçıltıyla.
sənisə yağış apardı – uzaqdan gördüm.
tutub bir parça buludun əlindən
getdin – itdin göy üzündə.

mən çaya qoşulub getdim,
sənsə yağışa.
məni çay apardı,
sənisə yağış.

çaya
yağış(lar)
yağar.

yağar, yağar qarışar çaya.
sonra aparar özüylə çayı,
aparar göy üzünə
və buluda dönər.

buluda dönər
yağar yer üzünə,



downloaded from KitabYurdu.org

yağar hər yerə
səni aparan yağış,
məni aparan çay.

*

lerik. yeni bir məkandayam sanki.
dağların arası ilə qalxdıqca üzü yuxarı
hiss edirəm çətinliyini hərəkətin,
yaşayıram sevincini yüksəlişin
qulağımda nəğmə səsi,
gözlərimdə  nəhayətsiz yaşıllıq,
içimdə həyacan fərəh qarışıq.

hər bir yüksəklikdən eniş var, qardaş,
enişi var hər yüksəkliyin.
hər şey uçmaqçun yaranıb yəqin...

*

bakı. bayıl qəsəbəsi.
saat 7.30 – oyanıram. qarşımda pəncərə, pəncərədə
yarımçıq şəkli dənizin və göy üzünün –yaman çox
bənzəyirlər bir-birinə – bir də az qala yaşamaqdan
bezmiş, qol-budağı əyilən ağac
və kölgəsinin sığındığı səki.



downloaded from KitabYurdu.org

dənizdə göy üzü yarımçıq, gözlərimdə göy üzü və
dəniz. göy üzünə sonsuzluq hopub, səkiyə kölgə.
və ayrılıq yazılıb göy üzünə də,
dənizə də, gözlərimə də, səkiyə də.
sonsuzluq-göy üzündə ayrılıq,
dənizdə ayrılıq-göy üzü,
səkidə ayrılıq-kölgə; əksi ağacın,
gözlərimdə ayrılıq-kölgə,göy üzü və dəniz.
nədənsə  yaman çox bənzəyir bir-birinə
göy üzü, gözlərim və dəniz.
ax, dəniz, dəniz – pərişan saçları məmləkətin.

saat 8.00 – su şırıltısı.
səhərlər  çox darıxıram nədənsə, sinəm kədərlə dolu.
darıxanda atədimdi – hərdən güzgüyə baxıram.
hər gün bir az yox olur hər şey, bir az da yaranır nəsə.
dünənki adam deyiləm artıq.
kimləsə üz-üzə dayanmışam elə bil;
təsəlli verəsi halı yox
güzgüdəki adamın və eynən mənim kimi düşünür
gözlərində qəm. və eynən mənə oxşayır görəsən?

güzgüylə var olur əksim
və ayrılıq dilində danışır güzgüylə hər an,



downloaded from KitabYurdu.org

ayrılıq dilində - gedirəm, gedirəm... getdim.
çəkilirəm. həmən yox olur güzgüdən əksim.

sabunlu suya qarışır düşüncələrim,
qoşulub şırıltıya gedir xatirələrim...

... – 09.09.2011.



downloaded from KitabYurdu.org

## pəncərə

yaşadıqca ölümə daha çox inanar adam.

ölüm ehtimalı zamanla düz mütənasib,
ömür günahlarıyla.

zamanı içinə buraxmayanlar daima körpə qalar –
ürəyi azad – daima sevdalı.

zərbəyə az məruz qalar kiçiklər.daha çox böyüklər
tuş gələr, bəzən də özü çırpılar zərbələrə; dözər,
ya da məhv olar.

qapılar həyatı yarıya bölər. yalnız bir üzü yaşanar
ömürlərin qapılar arxasında.

pəncərələr qapılardan kiçik düzələrsə də,
qapıdan keçə bilməyənlər süzülər pəncərədən.
sığınar divarlara pəncərələr, qoruya bilməz
sirrini qapıların.

çırpılan qapılardan diksinən məhbuslar ümidlə
baxar pəncərələrə; içəri çərçivəyə salınmış azadlıq
süzülər, dışarı həsrətli məyus baxışlar.
ümidlər çırpınar qapılar arxasında, yaşarar
pəncərələrin şüşə gözləri.



downloaded from KitabYurdu.org

üstünə toz qonmuş pəncərələr günahlar arasında
vurnuxan ömürtək boylanar adamın üzünə.
silindikcə tozu təmizə çıxar, amma yaşadar özündə
toz qəmli tarixçəsini silinmiş pəncərələrin –
yaşanan yox olmur ki.

özümü ödürmək istəyirəm – pıçıldar ümidsizlər,
ölümü öldürmək istəyirəm – çığırar çarəsizlər.
sonra diksinər öz səsindən, boylanar ətrafa
örtər qapını.

söykəyib üzünü örtülən qapılara hönkürər
tənhalar,ümidsizlər, biçarələr.

qapısı bağlı dəbdəbəli evlərin dəhlizi sıxar adamı,
öncə pəncərəsin axtarar adamın gözləri.

divarı uçulmuş binaların qapısı, pəncərəsi,
dəhlizi olmaz.

sökün divarları, – düşünər məhbuslar, – çıxarın
qapıları. silin tozunu pəncərələrin, söykəyin
bir tərəfə, nə vaxtsa yenə də lazım olar.

...- 07.07.2010



downloaded from KitabYurdu.org

## dağınıq düşüncələr
### *(şeir esse)*

bir gün mən də öləcəyəm...
adam öz ölümünə inanmasa da
bu bir yəqin hadisə -
ehtimalı da birə bərabər

qəbrimi qazacaqlar
yəqin ki
bir kənd qəbirstanlığında
dəfn edəcəklər məni Allah qismət eləsə
yəni itkin düşməsəm
ya bir təyyarə
ya da
gəmi qəzasına uğramasam
dənizdə batmasam və sairə

dəfn edəcəklər
və inanacaqlar öldüyümə
sonra fikirləşəcəklər
nədən öldü
necə öldü
kim öldürdü



downloaded from KitabYurdu.org

ola bilsin doğma admlardan
özünü qınayanlar da tapılsın:
qoruya bilmədik onu

amma...
axı insan hər gün öldürür
hər gündə öldürülür cənablar

həmişə düşündüyüm
amma heç vaxt demədiyim
heç zaman da deməyəcəyim
bir istək keçər könlümdən:
öncə əllərimə qəbir qazarsınız

desəm
yəqin ki
"bunu bir ağıllı adam bilirdik"
düşünüb də qımışarlar

əvvəllər qəbiri savaba qazardılar
çox şeyin ucuzlaşıb
çörəyin bahalaşdığı bir vaxtda
neyləsin qəbir qazan zalım oğlu



downloaded from KitabYurdu.org

bir zamanlar yazmışdım ki
ucuzlaşdığına inanmadım göz yaşlarının
heç inanmadım

öncə əllərimə qəbir qazarsınız

çünki...
çox zaman hadisələri qoxusu ilə
adamları əlləri ilə xatırlayıram
elə əllərindən də tanıyıram adamları
tanış bir adamın ölüm xəbərini eşidəndə
"əlləri də öldü" - düşünürəm

axı...
insan daha çox
əlləri ilə sevər
əlləri ilə nifrət eləyər
elə ən çox da
görüb tanıdığı əlləri olar
nələr eləməz əlləri ilə

birdən yadıma düşür ki
möhtəşəm tikinti gedir şəhərimizdə
təhlükəsizliyi unutmasınlar amma



downloaded from KitabYurdu.org

sözümün canı bunda deyil

yoldan ötüb
işinin dalınca gedən adamlara
müştəri gözü ilə baxan sürücülərdən
soruşmaq istəyirəm hərdən:
bu adamların
hara getmək isdədiklərinin
fərqi yoxdu sizinçün?
sonra
ürəyimdən keçənlərə
özümün də gülməyim tutar:
əlbəttə hər bir adama
öz istədiyi daha maraqlıdı –
bunu bilməyə nə var

bir mötəbər alim adamın yanına
xahişə getmişdim
yaxşı qarşıladı sağ olsun
dedi problem yoxdu müəllim
təki sən hazırlığını gör
ayın axırına hər şey düzələr
düzəlmədi...



downloaded from KitabYurdu.org

hərdən mənə elə gəlir
adamlar daha çox
yalan danışmağa meyillidirlər

ciddi bir adamdan eşitdim ki
yaşlı bir cənab
sevgilərindən fəxrlə danışırmış
yaxın dostlarına
demə cavan bir "ulduz"
möhkəm vurulub ona
o cavan ... "ulduz"
bu ... qoca cənabı necə sevir axı –
düşündüm

sadəlöhvlik edirəm hərdən
sevgi üçün
mütləq və həmişə
sevmək lazımdı ki
nifrətdən sevgi
sevgidən nifrət doğular görərsən

yenə fikrim dağıldı
əllərdən danışırdım axı



downloaded from KitabYurdu.org

bir dostum var incəsənət adamıdı
üzümə qımışa – qımışa
yenə gözlərin qızarıb deyəndə
birinci əllərimə baxıram

axı ...
əlləri ilə sevər
əlləri ilə nifrət eləyər adamlar
elə axırda da əlləri ölər
gözümlə görmüşəm
can üstə olan adamın
sonda nədənsə yapışmaq istəyini
möhkəm sıxılar bir – birinə barmaqları
yumruğa dönər

quşlarınsa qanadları ölər öncə
öləndə
quşlar üzü aşağı
balıqlar üzü yuxarı ölər
qalxar suyun səthinə balıqlar öləndə
ləpələr onları sahilə atar
məzarı qumlu sahillər
başdaşı
sahilə çırpılan dalğalar olar



downloaded from KitabYurdu.org

balıqların dəniz istəyi
quşların göy üzü
insanın əlləri sonda ölər

elə qocaldığını da
ilk dəfə əllərindən oxuyar adamlar
sonra güzgü qabağına keçər
bir anlıq unudar əllərini

unutqanlıq da
hərdən adamın karına gələr
verdiyi vədə əməl etməyəndə
özünü unudan kimi göstərər
təki adama yalançı deməsinlər
(unutmaq daha yaxşıdı guya)
bəzən də
qəsdən unutmağa çalışar
“bu da ötər” – düşünüb də
çox şeyi qulaq ardına vurar:
itkilər – unut getsin!
xəyanət – unut getsin!
məğlubiyyət – unut getsin!
səfalət – unut getsin!
cəhalət – unut getsin!



downloaded from KitabYurdu.org

-----------------------------
amma bir şeyi unutmaz qəti
kim deyər o nədi?

fikrim yaman dağıldı
mətləbdən uzaq düşdüm

sözümə
belə başlamışdım axı:
bir gün mən də öləcəyəm ...

elə hamı bir gün öləcək
vahid ehtimalla
öz ölümünə inanıb da
ölüm ayağında olan adam
nə düşünər görəsən

yenə fikrim dağılacaq
gözləyin
inşallah davamı olacaq

... - 30.05.2008.



downloaded from KitabYurdu.org

# ayrılıqlar yağdı ömrümə

mən yağışı sevirdim
ayrılıqlar yağdı ömrümə

payız gəlməmiş atamı itirdim
yaz yağışı yağmamış anamı...
sonra da
daha bir doğma insan
şair Məmmədhüseyn Mərdan...

başqa itkilərim də oldu
bəzilərini sağ ikən itirdim
onlardan danışmağa gücüm yox amma...

alışa bilməmişdim ayrılıqlara...

ötən payız
qızımı yola saldım rusiyaya
dəmir yolu vağzalından
kövrəlmişdi ağlayırdı için-için
doğma adamlarin arasında olsa da
qərib şəhərdə yaşamaq
yazılıbmış taleyınə



downloaded from KitabYurdu.org

alışırdım ayrılıqlara...

bu günlərdə
tikinti apardılar
evimizin yanındakı boş sahədə –
qaldı tikilinin altında
bu da bir itki...
o sahəni boş görməyə (azad!)
vərdiş etmişdim neçə illərdi

sıxılır hər şey
əriyir bir-birinin içində
insanlar torpaqda əriyir
torpaqlar binaların altında...
insanlar binalara sığınır
binalar şəhərlərə
şəhərlər ölkələrə
ölkələr göy üzünə
göy üzü başqa göy üzünə...

itkilərə alışmamışdım doğrusu...

azadlığını itirən də oldu sıramızdan
xiffətini çəkir doğma adamlar



downloaded from KitabYurdu.org

necə olsa
bizə də pay düşür axı həmən itkidən

bir-birinə sığınsa da
elə bir-birinin içində də əriyir
itir adamlar
ən dəhşətlisi də bu
bir az gec anladım bunun
ən böyük itki olduğunu-qəfildən

itkilərim çox oldu bu qəbildən
mən kimlərinsə içində əridim
kimlərsə mənim...

itkilərə alışmamışdım
mən yağışı sevirdim

mən yağışı sevirdim
ayrılıqlar yağdı ömrümə
ayrılıqlara alışırdım
yağışlar yağdı...

...-23.04.2008



downloaded from KitabYurdu.org

# inam, aldanış və hər an intihar
## (şeir-esse)

gözləri monitorda,əlləri görüşür çənəsi altda.
sıxılan barmaqlar arasında itir məsafə,
boğulur sonsuzluq. görüşən əllər yeni məkan
forması, masa üzərindəki proyeksiyası-kölgə;
bütün təsvirlər təhrif olunmuş şəklidi həqiqətin.
o, içində dünyanın-kölgə qismində,
dünya onun içində-yanlış modeli gerçəkliyin.
oxuyur müxtəlif ünvanlı bir sətirlik  məktubları:

deməк sən də belə; sən də unutdun məni, dost.
demək sən də belə; sən də atdın məni, dost.
demək sən də belə; sən də aldatdın məni, dost.
demək sənsə beləymişsən;unutmadın, atmadın,
aldatmadın.

məktub yazmaq zəiflik əlamətidi hardasa –
keçir ağlından, sıxır klavişin düyməsini: delete.
inanma, aldanma, utanma – babasi tez-tez
nəsihət verərdi ona.
inandı, aldandı, utandı.
vədlər aldatmaq, inamlar aldanmaq üçündü –
düşünür indi.



downloaded from KitabYurdu.org

biri vardı körpə vaxtı zibil yeşiyindən tapmışdılar.
azca mərhəmət göstərsəydilər ya uşaq evinin, ya da
heç olmasa polis şöbəsinin qarşısına atılardı.
atıldı, unudulmadı, unutmadı. böyüyüb tapdı
anasını, tapa bilmədi atasını.uzun sivri burnu,
sərt sifəti vardı,üzü gülməzdi. atdı anasını
qocalar evinə,çıxdı itirdiyi sevgilərin əvəzin.
atdılar, atıldılar. sevgi gəzərkən sevgi itirdilər –
unutmadılar.

o isə səddam hüseynin oğluyam səddam hüseynin
– söyləyib şəstlə, az adamı bəyənər, yeni hökumət
yaratmaq istər, şeir yazar, havalı-havalı gəzərdi.
gəzdi, gəzdi, yorulub bitdi nəşriyyatın qabağında
üzündə təbəssüm. pul alanda adamdan rəngi qızarır,
sonra öz-özunə nəsə danışır. keçmişi yaxşı xatırlayır,
indiki zaman yoxdu onunçun sanki. bir də çoxları
üçün əsl təsəlli yeridi, əksəriyyət baxıb ona ağıllı
hesab edər özünü. bir dəfə maşının güzgüsündən
gözünü silən görmüşdü onu – ağlayırdı deyəsən.
atdılar, unutmadılar.

yaraşıqlı, boy-buxunlu idi birisi.
bütün fədakarlıqlar qorxaqlıqdan doğur –
deyə yaşadı ürəyi istəyən kimi. istəyəndə sevər,
istəyəndə atar unudardı. atdı, atıldı, unutdu,



downloaded from KitabYurdu.org

unuduldu. azıb bütün yolları dönür – yollar yorğunu,
sən hara üz almısan, zalım. atan atılır, unudan
unudulur, aldadan aldadılır. atmadın, unutmadın,
aldatmadın, illərlə xəstə yatdın, sevgi tutdu səni.
o, sənə dönür indi yollar yorğunu,
sən hara üz almısan, qadın:
unutmadın, aldatmadın, atdın deyəsən.

qırılır xatirələr...
gözləri monitorda, əlləri çənəsi altda,
bir zaman kəsiyidi, bir fəza cismi.
çoxdu, çoxluqdu – boş çoxluq:
nə gözü var, nə ürəyi –
itir düşüncəsi – yox olur artıq,
dəyişir məkan – zaman forması.
aldatdılar, atdılar, unutdular.

biri atıb, biri atılib gəlir
biri unudub, biri unudulub gəlir
biri aldadıb, biri aldanıb gəlir
biri dik, biri əyilib gəlir –
gəlir hamı gəlir, gəlir hər an gəlir,
gəlir,sənə gəlir kölgə şəklində;
aldatmadın
atmadın
unutmadın.

... – 22.11.2010.



downloaded from KitabYurdu.org

# nəğmə
## *(şeir-esse)*

gəl sənə nəğmə oxuyum.sinəm
nəğməylə dolu. yolum milyon illərdi
qalxar enər qırılar – görmüsən də
ürək necə pıçıldar – sinisoid misallı

körpü.dənizin üstü ilə yeriyirəm
ayaqlarım dənizə həsrət
yeriyirəm üzü göy üzünə.neçə dalğalıq
yol qalar.fikir məni aparır. tutur
sentimentallığım. alıb uçursa məni
dalğalar çatarammı göy üzünə görəsən?

yeriyirəm. ətrafda zaman. zamanın içində
məkan uçan xalçatək. məkanın üstündə
adamlar: tək – tək qoşa – qoşa. daşıyar
onları keçmişə
bir qadın dayanıb üzü dənizə. çevrilir
bir anlıq. o qədər gözəl deyil. etinasız
görünməyə çalışır. gözlərindəsə
bambaşqa bir nəğmə



downloaded from KitabYurdu.org

sıxıb sinəsinə qızı bir oğlan – söykənib
məhəccərə. saçları ilə gizləyib qız üzünü
tanınmasın deyə. sevgi oxunmur oğlanın
gözlərində. ovçu gözlərinə bənzəyir gözləri nəsə...

balıq tutur bir kişi. tamaşa eləyirəm bir az
– bir şey çıxır?
– çıxar e... bu "maçmaç – qucquc"lar qoyarsa
anlamıram doğrusu. onlardan balığa nə...

balıq uçur dənizdə quşa dönmək istəyir
quşsa üzür səmada balıq olmaq istəyir
bəs insan nədi allah yaratdığın məkanda
nə yaşayar dənizdə nə də uçar səmada

burada tükənir körpü. qapanır məkan
bitir yürüş trayektoriyası
burası körpü ilə sonsuzluğun vida nöqtəsi
qarşıda dəniz. ayaqlarım dənizə həsrət
və göy üzü. sonsuzluq – ümidlərin ölçüsü

dənizin üstü ilə yeriyirəm üzü şəhərə
rəngbərəng işıqlar. şütüyən avtomobillər
uca binalar...



downloaded from KitabYurdu.org

hər şey qapalı məhdud yaraşıqlı olsa da
sanki tarıma çəkilər bütün şəhərlər
nəfəsini içində gizlər
amma hər şey hərəkətdə
sükunət halında olsa da belə

çinli fəhlələr işləyir dəniz kənarında
eybi yox qoy işləsinlər. onlar da allah
bəndəsidi. çörək pulunu burdan çıxarar

irəlidə keçmiş "lenin muzeyi"
80-ci illərin axırı. inqilabi əhval-ruhiyyə
güclü idi o zaman. qəbul otağında
gözəl bir katibə qız. azərbaycanca pis
danışır. yaşlı bir kişi irad tutur ona
qızarır. bir söz söyləmir
insafən desək özgə dilləri bilmək
hər zaman vacib sayılıb bizə

iraqda iraqlıları fələstində fələstinliləri...
güllələyirlər qatil haramzadələr. hamısının
mayası eyni
"fələstinəm fələstinəm fələstin" söyləyir ərəbcə
fələstinli yeniyetmə qız gözləri yaşlı
"amerikan dili"ni pis bilirlər güman ki...



downloaded from KitabYurdu.org

dənizin üstü ilə yeriyirəm üzü şəhərə
qəlbimə dəysə də bəzən sevirəm bu məmləkəti:
azərbaycanam azərbaycanam azərbaycan
son vaxtlar çox istəyirəm musiqi yazılsın
şeirlərimə – bir az kədərli
(ölkənin “şou-əhli” alimindən irəli)
gəl sənə nağmə oxuyum. sinəm nəğməylə dolu

dənizin üstü ilə yeriyirəm üzü şəhərə
yaşamaq uğrunda mübarizə gözləyir məni
sevdiyim bu şəhərdə
arxada dəniz və göy üzü
sonsuzluq – ümidlərin ölçüsü.

... – 14.02.2009



downloaded from KitabYurdu.org

# qəriblik
## *(şeir-esse)*

vağzallarda limanlarda ...
əllərində
ağır-ağır çantalar çamadanlar ...
əllərində
dünyanın ən ağır yükünü- ayrılıqları
gözlərində qəribliyi daşıyanlar
qürbətdə yaşayanlar.
əllərində ayrılıqları
gözlərində qəribliyi yaşadarlar
qürbətdə yaşayanlar.
limanlarda vağzallarda ...
ayrılıqları
əl edərkən əllərindən
qəribliyi
dolmuş gözlərindən oxumuşam
qərib doğmalarımın
doğma qəriblərimin.

yurddaşlarım yurddaşlarım
vətəni qürbətdən betər
gəzməyə qərib ölkəni
ölməyə vətəni seçər.



downloaded from KitabYurdu.org

yığıb pal-paltarını
qapıya sarı sürüyürdü çamadanını
gözəri yaşlı Şəhərli Qadın
geyinib pencəyini
götürüb başını gedirdi Şəhərli kişi
fərqinə varmadan
çırpıb arxasınca yaşadığı mənzilin qapısını.

öz doğma şəhərində
qəribliyi gözlərində yaşadırdılar .

qadınlığı qayğılarına qurban verib
ev-ev gəzib
şüşə balonlarda süd qatıq satar Səyyarə
evə dönərkən
xəstə ərinə araq almağı da unutmaz
«azarı var içməsə ölər» – deyir.

hər gün küçədə
əlində göyərti dolu zənbilləri
avazla çağırar
saralmış pencəyi dizindən aşağı
gödəkboy Qürbət.

kənddən şəhərə köçüblər
ayrılıqları əllərində…



downloaded from KitabYurdu.org

aldadıb
şəhərdəki mənzilini alıblar əlindən
qadını da xəyanət edib ona
indi doğma kəndində
havalı-havalı gəzir zavallı Qərib
qəribliyi gözlərində…

hər səhər çıxıb çadırdan
qərib-qərib boylanar göy üzünə Köçəri
güllələnmiş yaralanmış… yurd həsrəti
gözlərində…

ayrılıqları əllərində
qəribliyi gözlərində daşıyarlar
qürbətdə yaşayanlar.

doğmalarım doğmalarım
bir nisgil var ürəyimdə
silinməyən
o nisgilin adı nə
oxumaq istəsəniz
baxın gözlərimə
ürəyim gözlərimdə…

avqust 2007



downloaded from KitabYurdu.org

# günahkar
## *(şeir-esse)*

1

sərin meh əsir
oturub daşın üstündə
seyr edirəm sakitcə

özünü dağdan atır
şəlalə
hər dəfə boşa çıxır
intihar cəhdi

dağlar daşlar qıvrıla-qıvrıla
əzilə-əzilə qoruyur onu
torpaq ovula-ovula

intihar cəhdindən sonra
sağ qalıb sevinən adamın taleyinə
oxşayar taleyi
tələsik yaşayar -
sürətlə axar nazilər azalar
və yox olar hardasa
və hardasa yaşayar yenə
sevinirəm bütün gözəlliklərə…



downloaded from KitabYurdu.org

2

bəlkə bir az
ağrılarımdan acılarımdan
tale oxşarlığımızdan danışım sizə
torpaq bacım
daş qardaşım.

sığala vərdiş çiyinlər
tabutlara da alışdı fəqət
kəpənək ölümünə duruxan adam
ən acı xəbərlərə hazır kimi
yaşayar artıq.

bu yaxınlarda
bir doğma adamın da
ümidsiz xəstəliyi barədə eşidəndə
susub kövrəldim bir söz demədən
o gündən yenə də
günahkar kimi yaşayıram sanki
içimdən ovula-ovula.

3

hərdən
maraqla baxıram kriminal filmlərə
cinayət aləmi ilə bağlı yazıları
maraqla oxuyuram.



downloaded from KitabYurdu.org

adətimdi
həmişə özümü
bütün pisliklərdə bir az günahkar
bütün qətllərdə bir az qatil
bütün cinayətlərdə bir az cani kimi
görürəm…

4

zaman bu dağlarda sanki yubanar
vaxtı bu daşlara bükün qalacaq
döyülən əzilən ovulan torpaq
sənin dağlar boyda yükün qalacaq.

5

sərin meh əsir
oturub tamaşa eləyirəm
hər dəfə bosa çıxan
intihar cəhdinə.

bir az günahkar
bir az qatil
bir az cani olsam da
sevinirəm bütün gözəlliklərə.

iyul 2007



downloaded from KitabYurdu.org

# Tərcümeyi-hal

Adım Əli Şirin
soyadım Şükürlü

Səyədulla müəllimin oğluyam
atasız günlərimi yaşayıram artıq

anam Göyçək adlı bir qadındır
xəstəlik üzür onu

üç uşaq atasıyam
bütün atalar kimi
sevirəm onları mən də

elmlər namizədiyəm
universitetdə dərs deyirəm

bir də
şeir yazıram

əvvəllər yaşamağı sevərdim
"yaşamaq gözəldir" – deyə
son vaxtlar
fərqli düşünürəm nədənsə...



downloaded from KitabYurdu.org

çılğınlığım da var
üzdən bir elə bilinməsə də
içimdə fırtınalar

xaraktercə zəif adamam
biganə qala bilmirəm olub keçənlərə
“hər şey ötəridir” - deyə

çoxlarından fərqli olaraq
həm ölümə inanıram
həm də ölümsüzlüyə
vəssalam...

hə...
bir də utanıram ağlayanda

2006



downloaded from KitabYurdu.org

***

evimizdə
oğlan uşağı yox idi
məndən özgə

təkliyimi
əmioğlanları ilə
bir də
yaxın dostlarımla unudardım

xətrimə dəyməzdilər
tez - tez liderlik həvəsinə düşərdim
mən də
xüsusilə futbol oynayanda

top
daha çox torda sevilir – bunu
bilməmiş deyilsən ata
yadımdadır
yaman pərt olardın
“Neftçi” uduzanda

top kimi
oynadar adamı tale



downloaded from KitabYurdu.org

sonralar
təkləndim tez – tez
uduzsam da bəzən
məğlub olmadım zatən
və
sonralar
sevmədim oyunları
heç sevmədim...

2006



downloaded from KitabYurdu.org

***

0 - dan 1 - ə kimi
yaxın çox yaxın
ədədlər arasına
nə böyük sonsuzluğun
sığındığını bilirsənmi – tükənməz sonsuzluğun

illərlə
uzun - uzun məsafələri
addım - addım maşın - maşın qatar - qatar...
adlasaq da
aşa bilmədik aradakı sərhəddi

bir - birimizə yaxın
çox yaxın olsaq da
sonsuz uzaqlıqdayıq fəqət...



downloaded from KitabYurdu.org

***

evlər
küçələr
çayxanalar
ofislər
kafelər
restoranlar...

ofislərdə
evlərdə
küçələrdə
çayxanalarda
restoranlarda...
adamlar

yəqin ki
hər kəs özünün
çox vacib olduğunu düşünər
daim yaşayacaq kimi yaşayar
bu həyatda
dəqiqələr
saatlar
aylar
illər ötər
bu adamlar
nə vaxtsa həyatda
olmayacaqlar.



downloaded from KitabYurdu.org

***

səhər. güzgü önündə.
üzümdə
bu vaxta qədər sezmədiyim
qırışlar
eynən atamın üzündəki
qırışlara bənzər

qızım deyir ki
dədəyə oxşayırsan getdikcə

atam xidmət eləyir
xəstə anama
deyirlər
anamsa hamıdan çox
məni istər
birinci məni çağırıb
son dəfə
təzyiqi qalxanda
o gündən
dik baxa bilmirəm
doğma adamların gözlərinə

böyük sevgilər yaşayar
adi adamlar



downloaded from KitabYurdu.org

atam xidmət eləyir
xəstə anama
anamsa hamıdan çox məni istər
mənsə uzaqda
üzümdə təptəzə qırışlar
atama oxşamaqda.

2005



downloaded from KitabYurdu.org

# Sizsizlik
## *(şeir-esse)*

bir il ötməmiş
yenidən
bir doğma adamın da
itkisi sarsıtdı məni,
atamın məzarı ilə yanaşı
qazıldı anamın qəbri,
sinəmdən üzü aşağı
sanki
nəsə sürüşdü ağrılar içində -
ürəyim olmaya görən?

şərəfli qadın ömrünü
yaşarlar sənintək, ana,
atamın məzarı ilə qoşa
məzarın mübarək, ana.

sizsizliyə inana - inana
yığdım kənd evimizdəki
telefon nömrəsini – dinlədim sizsizliyi,
xəttin o başındakı
aramsız telefon zənglərindən



downloaded from KitabYurdu.org

duydum səssizliyin vahiməsini
və
həyatımda
bəlkə ilk dəfə
sevmədim səssizliyi.

inandım yoxluğuna, ana,
inandım yoxluğuna
həzin astagəl səsini eşitməyəndə:
“sənsən, Şirin?”,

inandım ölümünə ata,
inandım ölümünə,
“Əli, oğul, sənsən?” –
nigaran səsini eşitməyəndə,

qıymazdın fikir eləyim,
ağrıma dözməzdin, ata,
sənsiz yaman kövrəlmişəm,
sözündən çıxmışam ata,

bir də
sevdiyim adamların biganəliyindən,
ürək ağrılarımın, sarsıntılarımın təsviri



downloaded from KitabYurdu.org

qara rəngli yuxusuzluğumdan
anladım yoxluğunuzu,
inandım ölümünüzə.

təkcə sevgimə toxunmaz sanki
bütün varlığıma
hakim kəsilən sizsizlik,
o qədər sevərdiz ki məni,

düşməni də sevərəm,
içim sevgi ilə dolu,
qüsura baxmayın, siz allah,
mənim yolum – sevda yolu.

ötən gecə yuxuda
su tökürdü əlimə atam,
meyvə dərirdi bağdan mənimçün,
hansı meyvə olduğunu anlamadım doğrusu,
o meyvə ağacını
bağımızda heç görməmişdim,
anam mənalı - mənalı baxırdı
işıqlı gözləriylə.

bilirəm, ana
bilirəm, daima izlər məni



downloaded from KitabYurdu.org

mənalı, işıqlı baxışların,
inanıram, ata,
inanıram, qoruyar məni
haradansa süzülüb gələn
narahat, kədərli səsin.

qaranlıqlar
heç nə vəd etməz artıq,
təkcə
pəncərəmdən görünən dəniz
ruhumu oxşar bir az,
bir az da
yaşadar məni
işıqdan bərq vuran su şəffaflığı.

tale belə gətirmiş,
narahatam, narahat
sizsiz də yaşayaram,
atam, anam,
rahat uyu, rahat yat.

2007



downloaded from KitabYurdu.org

## Boşluq

kövrəlmə
saçımın ağardığına
kövrəlmə bacım
zaman
məndən yan keçir
ömrümdə bir boşluq var –
zaman boşluqdan keçir.



downloaded from KitabYurdu.org

***

qarşımda
qapqara masa – üstü bomboş
və
kətilsiz –
gəlin adını sükut qoyaq
ölümə də bənzər amma...

bir para şeylər var ki
adını bilərik yalnız
bir para şeylər də var ki
yalnız özünü
bir para şeylərin də
nə adını bilərik
nə də özünü

indi
adımıza nə deyək qardaşlar?
sən xoşbəxtsən
sən bədbəxt
sən nə xoşbəxtsən nə bədbəxt
sən gözəlsən
sən çirkin
sən kamilsən
sən cahil
sən həqiqəti sevirsən



downloaded from KitabYurdu.org

sən yalanı
sən əclafsan
sən əxlaqsız
sən həyatsevərsən – ümidlərin bol
sən ümidsiz – ömründən az qalar
sən...
sıradan nə gələr
sonsuzluq – saymaqla qurtarmaz
adına “hesabi çoxluq” deyərlər riyaziyyatda

indi
adımızı nə qoyaq qardaşlar?
bəlkə Xoşbəxt
bəlkə Bədbəxt
bəlkə Ümid
bəlkə Kamil
bəlkə Gözəl
bəlkə Həyat
bəlkə Tale
bəlkə Ömür
bəlkə Ölüm
..................
bəlkə
sadəcə Ömür Ölümlü?!.

iyul-avqust 2007



downloaded from KitabYurdu.org

# Müqəddəs
## *(şeir-pritça)*

uca dağların döşündə
bir məmləkət yerləşirdi
adı Hamı idi
ətrafı yamyaşıl meşə
dumduru sularında balıqları görünən
Zəmanə adlı
nəhəng bir çay axırdı yaxınlığından

insanları eyni dildə danışar
sevgiləri nifrətləri eyni dildə
eyni dildə bir – birini aldadar
eyni dildə dua eləyərdilər

Müqəddəs elm öyrənər elm öyrədərdi
haqsızlığa tab gətirməz
dinə - imana
haqqa - ədalətə
saflığa təmizliyə
çağırardı həmvətənlərini.
qəlbinin dərinliyində
Müqəddəsi bəyənməyənlər sevməyənlər də
ona hörmətlə yanaşardılar



downloaded from KitabYurdu.org

bir gün
şiddətli qasırğa baş verdi məmləkətdə
dağ – daş yerindən oynayır
meşədə ağaclar qırılırdı

qasırğa o qədər gücləndi ki
axırda məmləkətin bütün sakinlərini
nəhəng çayın ağuşuna tulladı

Müqəddəs dözüm göstərdi
diz çöküb dua edir
Allahdan Hamının xilası üçün
mərhəmət diləyirdi

artıq tab gətirə bilmirdi Müqəddəs
nəhayət qasırğa onu da alıb
möhtəşəm Zəmanəyə təslim elədi

qoşuldu həmvətənlərinə Müqəddəs

çayda batan adamlar
əl – qol atır
tutmağa yer axtarır
fürsət tapan kimi
çığırıb kömək istəyirdilər



downloaded from KitabYurdu.org

Müqəddəs dua eləyirdi

qasırğa getdikcə zəifləyirdi
birinci Müqəddəsi
xilas etmək istədilər
köməyə yetişənlər:
"alim ölsə aləm ölər"

çayın suyu bərk bulandığından
adamlar çirkaba bulaşmış
tanınmaz hala düşmüşdülər
köməyə gələnlər
Müqəddəsi tanıya bilmədilər

aləm ölmədi alim öldü
duası yarımçıq qaldı.

... -24.05.2008.



downloaded from KitabYurdu.org

# Onun adı Şərəf idi
## *(Şeir-pritça)*

dilimin ucunda söylənməyən söz
sinəmdə nəğmələr yatar
təsəllim Sənsizlik bəzən
Sənsizlik səni anladar

masamın üstündə
kitablar  kağızlar  qələmlər ... məyus
sənsizlikdən danışır
təsəllim sənsizlik - səndən danışır.

yol qırağındakı Daşın üstündə
oturub Qoca – bir az dalğın
uzaqdan oynaya – oynaya
bir oğlan yaxınlaşır
–  adın nədir, bala? -
soruşur Qoca
–  adim Azərdir, dədə
– adam öz - özünə oynamaz, oğul!
–  öz- özümə oynamıram ki
içimdəki havaya oynayıram, dədə



downloaded from KitabYurdu.org

uzaqlaşır  Azər
gözdən itənə qədər
seyr edir onu Qoca

içindəki havaya yüyürür Azər

ulduzlar sayrışır. hava tutulur
keçdiyim küçələr  yollar
yol qırağındakı ... binalar qəmgin
yağışdan çıxıb sənsizliyi ağlayır
təsəllim sənsizlik – səni xatırladır

qapı ağzında
qarşılayır Azəri Baycan
sarılırlar biri – birinə
Baycan Azərin sevgilisi
gözəl bir qızdı
biçimli bədəni var

uzanıb Baycanın yanında Azər
isti öpüşləri
yandırır qızın sinəsini
– Azər, görəsən, qadınlar
sevmədən necə



downloaded from KitabYurdu.org

kiminsə ola bilirlər? –
ehtirasdan titrəyən səsiylə
soruşur Baycan
– Bu o deməkdir ki,
sən məni çox sevirsən –
daha möhkəm qucaqlayıb
özünə sıxır Baycanı Azər

belə bir məqamda
özü də bilmədən nədən
yenidən dillənir Baycan:
– deyirlər: düşmənlər
əsir qadınlarla
istədiyi kimi davranırlar

qızı qucaqlayan qolları
boşalır Azərin
isti öpüşlərin yeri soyumağa başlayır
Baycan heyrətlə baxır Azərə -
sanki buz heykəldi
dayanıb qarşısında

– bilirsən, Baycan,
mən bir qızı sevirdim uşaq vaxtından,



downloaded from KitabYurdu.org

əsir apardılar gözüm görəsi,
onun adı Şərəf idi. Ş-ə-r-ə-f...
boğulur Azərin səsi

qız ehtiraslı sevgidən sonra
dərhal anlaya bilmir
nə baş verdiyini
örtülən qapının səsindən
diksinib ayılır Baycan
çilik – çilik olub dağılır otağa
Baycanın xəyalındakı Azərin buz heykəli

Azər Baycandan qaçır.

səhərlər geyinib çıxıram evdən
dönürəm axşamlar gecə yarısı
geydiyim paltarlar
keçdiyim yollar
gördüyüm adamlar
sevdiyim axşamlar ... sənsizliyi anladır
təsəllim sənsizlik – səni anladır ...

– niyə bikefsən, oğul,
nəsə itirənə oxşayırsan? –



downloaded from KitabYurdu.org

soruşur yol qırağındakı
Daşın üstündə oturan Qoca
- hə, itirmişəm, dədə -
dillənir başını qaldırmadan Azər
- üzülmə, oğul, onsuz da
insan bu dünyaya
daha çox itirmək üçün gəlir

uzaqlaşdıqca Qocadan Azər
sanki daha aydın eşidir:
" insan bu dünyaya itirmək üçün gəlir"

"itirəndə də baxır nəyi itirirsən" –
qüssə ilə düşünür Azər

gözdən itənə qədər
seyr edir onu Qoca

Azər içindəki havadan qaçır ...

illərdi
bir qara sevda səsləyir məni
gedimmi görəsən?!
yəni belə olacaq –



downloaded from KitabYurdu.org

illər ötüb keçəcək
sən mənsiz yaşayacaqsan
mən sənsiz öləcəyəm?!..

hava soyuqdu ...
yol qırağındakı Daş
tənhalıqdan üşüyür artıq ...

sayrışır göydə ulduzlar sayrışır
qarışır yer üzü qarışır
yarışır hər şey yarışır
təsəllim Sənsizlik?!
Sənsizlik nədən danışır?!..

... – 08.04.2008.



downloaded from KitabYurdu.org

*2000-2005-ci illər*

# SEVGİDƏN DOGULAN SÜKUT KİMİYƏM



downloaded from KitabYurdu.org

***

O qədər ucadayam
yıxılmaqdan qorxuram,

o qədər aşağdayam,
Allah,
səndən aşağda,

yıxılmağa
yerim yox.



downloaded from KitabYurdu.org

***

Məyusam,
çox məyusam yenə,

dünən yaşanan ömür
şirin röyalartək
tərsinə yozulur
bu gün.

Çox məyusam...

görən ayrılıqlara
acı göz yaşı tökən
bir qadın tapılarmı
bu şəhərdə,

görən bir adam tapılarmı
sədəqə verib
savab qazanmaq əvəzinə
acısın bir şikəst dilənçi taleyinə.

Çox məyusam...

Inandım, inandım bu gün,
qəzet satan zavallı,
sənin
Sahibi - Əz - Zaman olduğuna



downloaded from KitabYurdu.org

***

Bir payız günü
hava çiskinli
və mən kədərli.

Yenə də
başımı qatar adamlar,
yenə də
dadıma çatar ağaclar
bu payız günü.

Adam yaşadıqca
misqal - misqal ürək itirər,
ağac yaşadıqca
yarpaq - yarpaq ürək gətirər.

Baxıb ağaclara
mən yolumu azaram,
doğulandan qəlbimə
məzaram mən, məzaram.



downloaded from KitabYurdu.org

***

Özümü qura bilmədim,
demə,
getdiyim yollar qurulmuş,
ha istədim əyri gedim,
qurulu yollar düz imiş.

Çıxış yolu tapammadım,
mən özümdən çıxdım, Allah,
getməyə yol tapammadım,
mən özümdən keçdim, Allah.

Özündən keçən adamın,
özündən çıxan adamın,
bu qədər sevən adamın
Səndən başqa kimi varmış.

Bütün yolların əvvəli,
bütün yolların sonusan,
hara baxdım səni gördüm,
mən əvvəldən yoxmuşam, Allah.



downloaded from KitabYurdu.org

***

Mən, yenə də özüm
və dağınıq xatirələrim
şəhərin düzbucaqlı
parklarının birində,
vaxt da ki öz işində.

Saat on üç qırx radələri,
sanki izlər məni
yaxınlıqdakı evlərin pəncərələri

Düzbucaqlı park;
saat on üç qırx radələri,
mən, özüm
və xatirələrim

Görəsən mən indi hardayam,
halım necədi,
əziz dost, deməssən
saat neçədi?



downloaded from KitabYurdu.org

***

Ya mən məkandayam,
ya mən məkanam,
ya zaman məndədi,
ya mən zamanda.

Dəyişir məkan, dəyişir,
sürüşür zaman, sürüşür,
tükənir hər şey - dəyişir,
dəyişir hər şey - tükənir.

Fırlanır yer üzü;
məndən aşağı,
fırlanır,
göy üzü məndən aşağı.

Bir az yer üzünə,
bir az göy üzünə
oxşayıram mən,
gah bir az məkana,
gah da ki zamana
oxşayıram mən.

Dəyişir yer üzü - kölgəsi üzümdə,
dəyişir göy üzü - işığı gözümdə,



downloaded from KitabYurdu.org

dəyişir gözlərim, dəyişir;
işığı üzümdə,
dəyişir kölgəsi gözümdə.

Nə qədər dəyişmək olar, Allah,
necə tanıyacaq görənlər məni,
necə tanıyacaq zalım qardaşım,
necə tanıyacaq zavallı anam,
üzümdə - gözümdə göyün işığı,
üzümdə - gözümdə yer əlaməti





downloaded from KitabYurdu.org

***

Ağrılarımla başımı qatası
bir gün yaşadım.

Bəlkə
ilk Adəm övladıyam ki,
sevindim ağrılarıma,
sevdim ağrılarımı.

Gündə neçə dəfə öldüm-dirildim,
amma
bircə nəfər qatilim yoxdu,
gündə neçə dəfə əli qanlıyam,
axtarsan
görərsən qurbanım yoxdu.

Beləcə sevindim ağrılarıma,

döndüm göy üzünə -
oğulsuz bir evin tavanı yoxdu, -
sıxdım gözlərimi, göz yaşı yoxdu.

Beləcə yaşaram ağrılarımla,

amma bilirəm ki,
bir gün gələcək,
bir gün gələcək ki, ağrılarımdan
İsa peyğəmbərəm Zühur edəcəm.



downloaded from KitabYurdu.org

***

Hardan gəlib
hara gedir bu adam,
hardan gəlib
ora gedir bu adam,

hardan uçub ora köçür
dimdiyində dən aparan
tənha quş,

dimdiyindən düşən dəndən
tənha ağac bitəcək
yarpaqları yamyaşıl.

Sevilən bu ağacın
yamyaşıl yarpaqları
yığacaq özünə
dünyanın hər üzünü,

tufan qopacaq
bu ağacın başında,
qar, yağış yağacaq
yamyaşıl yarpaqların üstünə.



downloaded from KitabYurdu.org

Yığacaq özünə dünyanı
bu ağac,

ağac bitən yerdə dünya qopacaq,

uçub gələcək tənha quş,
görəcək
ağac bitən yerdə,
dünya qopan yerdə
bir körpə ağlayır üzü Allaha,
başının üstündə bir qurd ulayır.



downloaded from KitabYurdu.org

***

İşıq – kölgə
gecə - gündüz
xeyir – şər
məhəbbət – nifrət
varlıq – yoxluq
Allah – sonsuzluq...

əksimi yarada bilmədim,
ölürəm yavaş – yavaş



downloaded from KitabYurdu.org

***

Səbəb – nəticə
nəticə - səbəb
hava – od
od – su
su – torpaq
torpaq – adam
adam – Adəm

bəs nə qaldı? -
güman.

güman – Allah
Allah – hər şey



downloaded from KitabYurdu.org

***

Hər dəfə
nəsə mane olur xoşbəxtliyimə,
hər dəfə
nəsə qoymur məni xoşbəxt olmağa.

Bu yaz da
yıxıldım xoşbəxtlikdən,

yapışdım göy üzündən -
sürüşdü əllərim,
düşdüm
boşluqların sonsuzluğuna.

Nəsə...

bu yaz da
xoşbəxt olmadım,

amma eybi yox,
xoşbəxt olmadan da
yaşamaq olar,

hələ ki
əllərim göylər əsiri,
hələ ki
göy üzü gözlərim əsiri.



downloaded from KitabYurdu.org

***

1

Bir balaca yol tapdı ki,
açılan cığırla
ilantək tələsən, qaçan su axını
və
boşalmaq istəyən gölməçə var ha
bax elədir yaranan hər şey:
qurtulmaq, boşalmaq, yaşamaq istər.

2

Lap elə bomj həyatı;
sevgi nədi,
heç salam gözləməz kimsədən,
yalnız mərhəmət və bir tikə çörək
bəs edər ona.

bomjun yaşamaq istəyi var ha
bax elə anladım
həyatın şirinliyini.

3

İndi yağan yağışlar var ha
əvvəl yağanların
davamı deyim, təkrarı deyim;



downloaded from KitabYurdu.org

əvvəl yağan yağışlar kimi
anladım
insanın ölümünü.

İndi yağan yağışlar var ha
bax elə anladım
insanın ölümdən sonrakı həyatını.

4

Varlığı yoxluq,
yoxluğu varlıq kimi gördüm.

Yoxluq,varlıq
və sairə və ilaxır,
deyəsən
həyatı anlayıram,
duyuram artıq.





downloaded from KitabYurdu.org

***

Göz yaşlarını
bir də
küləyin fəzaya səpələdiyi
qadın saçlarını xatırlayıram
yağışlar yağdığı zaman

a y r ı l ı q l a r ı sevmədim

duz kimi dağıldım
yaşadığım yerlərə

yağışı sevdim
yaşadığım yerlərdə
küləyin gətirdiyi çiskin yağışı
qadın saçlarıtək
üzümdə - gözümdə gəzdiyi zaman

a y r ı l ı q l a r ı sevmədim

bütün sevgilərin sonu -
ayrılıq
bütün sevgilərin sonu -
göz yaşı



downloaded from KitabYurdu.org

a y r ı l ı q l a r ı sevmədim

göz yaşlarını sevdim
ayrılıqlar gəldiyi zaman





downloaded from KitabYurdu.org

***

Hədiyyə kimi gətirərsən mənə
evindən eşiyindən
oğurlanmış vaxtı gizlicə

bizi ayrılıqlar gözləyir yenə

neçə ayrılıqlar ötdü
ilk görüşümüzdən -
yaşanan ömürdən göz yaşı qalıbmı
məni sevdiyini inandırmağa

bizi ayrılıqlar gözləyir yenə

xərclənər gətirdiyin vaxt
görüşdüyümüz kafedə bir masa arxasında
məmnunuq gizli görüşlərin şirinliyindən

sonda göz yaşı olarsa
bir lirik məhəbbət əsərinə
oxşayar görüşlərimiz
ağlaya bilərsənmi sonda
əzizim
axı ayrılıqlar gözləyir bizi



downloaded from KitabYurdu.org

***

Ləpələr dənizdə,
göz yaşın gözlərində üzür,
gözəl bir gecədə
sabahın ümidsizliyi çırpınır,
göz yaşın sahilə həsrət ləpələrtək
gözlərində boğulur.

Bu gecə ürəyim sinəmdə
canlı bir insan kimi
çırpınır ümidsiz - ümidsiz,
çırpınır
bir ömür tabutda uyuyub
oyanan kimi.

Ləpələr dənizdə üzür,
ürəyim yerindən üzülür.





downloaded from KitabYurdu.org

***

Gecə yarı...
oyanıram səksəkəli,
yanımda sükunət,
çalışıram özümü
həyatın gözəl olduğuna
inandırmağa,
bir yandan da ümidlər,
qoymurlar adamı
adam kimi yaşamağa.

Gecə yarı
yanımda
sükunət, ümid və sən,

səhərə nə qədər
qalır görəsən.



downloaded from KitabYurdu.org

***

2003 - cü il
yanvarın biri:
yeni bir gün, yenə bir gün,
dünənkilərin təkrarı,
rəqəmlərin düzülüşü
təzədir təkcə:
iki min üçüncü il
yanvarın biri.

Səhər
yenə də həmişə olduğu kimi
başında sevda havası,
könlündə yaşamaq arzusu
düşüb yollara
harasa gedər adamlar.

Yol qırağında
ümidsiz – ümidsiz qocalar ağaclar,
gecənin qaranlığı həmişəki tək,
yanan işıqlar əvəz eləməz
gün işığını,

evlərdə, küçələrdə, mağazalarda
yanan işıqlar sabaha





downloaded from KitabYurdu.org

bol - bol ümidlər paylar:
yeni bir gün, yenə bir gün
istər adamlar,

özündən xəbərsiz yaranan nə varsa
Qurtulmaq, Qurtarmaq, Tükənmək
istər.



downloaded from KitabYurdu.org

***

Gəlirəm
elə hey gəlirəm
mən sənə sarı,
gəldikcə mən səndən
uzaqlaşıram,
atdığım hər addım
yolumu kəsir.

Bu necə yerişdi,
bu necə addım,
kəsilmiş yollarla
mən sənə
de, necə çatım

Sən səma adamı deyilsən,

neynim, atılan hər addım
yolumu kəsir,
dəyişir səmtimi üzü fəzaya,
getdikcə keçirəm səndən yuxarı,
beləcə gedirəm üzü səmaya



downloaded from KitabYurdu.org

Belə ki gedirəm üzü səmaya,
sevin ey sevdiyim,
qorxma, sən allah,
boyum uca görünəcək
dar ağacında.



downloaded from KitabYurdu.org

***

Yüz il, min il, milyon il
əvvəl necəydisə, indi də elə,
yüz il, min il, milyon il
sonra da gördüyün kimi:
dəyişməz insan övladı,
dəyişməz inan.

Zaman düz xətt boyunca axmır,
zaman çevrəvari – hər şey
özünə dönür.

Sən də özünə dönəcəksən,
sən də qayıdacaqsan mənə,
qayıdıb sən məndən
sevməyi öyrənəcəksən,
sevgi haqqında danışmağı yox,

əsl sevgi deyilmir axı,
deyilmir heç pıçıltıyla
inan mənə

Sevgi ən böyük həqiqət,
həqiqət sevilmir axı,
pıçıltıyla deyilsə belə.



downloaded from KitabYurdu.org

İndi gördüyün sevgilər
yəqin bəzəkli yalanlar
söyləyir sənə, amma
nə vaxtsa sən özünə
qayıdacaqsan,
hər şey özünə dönür,
sən mənə dönəcəksən,
dönüb sevməyi öyrənəcəksən



downloaded from KitabYurdu.org

***

Uzanan yollar
sevildiyimi söylər
bu gecə.

Əllərin əllərimdə,
gözlərin gözlərimdə,
yolların tükənməsini istəməzdim
gecənin qaranlığında.

Nə qədər itirdim gözləriməcən,
nələri itirdim gözləriməcən
onu bilmirəm

O gün
tum satan qocanın
sevgisi sönmüş gözlərindəki
etinasızlıq qorxutdu məni,
bir də bağlı qapılar arxasında
tək qalmaqdan qorxuram.

Evizin yanında
düşüb maşından, bağlasan qapını
qorxacam yolların tükənməsindən.





downloaded from KitabYurdu.org

Görəsən dünya necədi
məndən kənarda,
insanlar, ağaclar, quşlar necədi
gözləriməcən,
başqaları necə sevir görəsən

Yolların tükənməsini istəməzdim
gecənin qaranlığında,

bir də bağlı qapılar arxasında
tək qalmağı.



downloaded from KitabYurdu.org

***

37 yaş da
belə getdi,
yaşadım deyəsən.

38 yaşın astanasında
yenə payız gələcək,
yenə çisgin yağışlar yağacaq,
yenə şeir yazacam
yağışdan sonra.

İslandıqca
bürünüb kədərə
çox şeyi unudacam,
20 il əvvəl gördüyüm
bir qızı xatırlayacam,
heç adı da
yadıma düşməyəcək.

Yağışın altında kimdi, ay Allah?
Hurisən, mələksən – göydən düşmüsən,
sevdalı gözlərlə baxırsan mənə?

Nəyimə lazımdı
hardan gəlmisən



downloaded from KitabYurdu.org

nəçisən, kimsən yağışın altda,
çıxmayıb başımdan sevda havası,
gəl qoşul mənə,
gəl qoşul oynayaq
sevgi havası.

37 yaş da
belə getdi,
yaşadım deyəsən
38 yaşın astanasında,

20 il sonra görəsən
nələr olacaq, nələr düşünəcəm
yağışdan sonra.



downloaded from KitabYurdu.org

***

Dəniz qırağındakı
boş yerin sənsizliyi
sızladacaq qəlbimi
bu səhər yenə.

Qağayılar əvvəlki tək
dənizi sevməyində

Sabah sən yenə də
olmayacaqsan bilirəm,
sabah mən yenə də
qayıdacağam dəniz
qırağının sənsizliyinə və
bircə təsəlli:
yolumu gözləyəcək
dəniz qırağındakı
boş yerin sənsizliyi,
bir də
dünənki qağayıların
dəniz sevgisi.





downloaded from KitabYurdu.org

***

Bayırda yağış yağır
xatirələr oyanır,
elə bu an
hardasa bir insan ölür,
bir körpə doğulur,
kimsə kiməsə vurulur,
sevgi yaranır...

Bayırda yağış yağır,
güldanda
solmuş çiçəklər.

Əlim sənə çatmayır,
əllərimə tabutam
bu gün.



downloaded from KitabYurdu.org

***

1

İlk dəfə
hərə bir cürə vurular,
mənsə gözlərə vurulmuşam

O sevdalı baxışların
sahibi kim idi –
fərqi yox indi,
fərz edək unutmuşam
yadıma gəlmir,
amma
o vaxtdan gözlərim
sevgilə dolu,
bir də
öyrəşdiyim sevgi əzabı.

2

O gün yıxılan qocaya
kimsə əl verib qaldırdı,
mənsə əllərimlə
gözlərimi qapadım,
neynəyim,
yıxılan adama baxa bilmirəm,



downloaded from KitabYurdu.org

fərqi yox kimdi,
uşaqdı, qocadı, dostdu, düşməndi,
baxa bilmirəm
yıxılanlara – yıxılan ağaca,
düşən yarpağa,
vurulub səmadan enən
bir quşa –
səmaya vurulub düşən o quşa.

3

İlk sevgim
gözlərdən başlayıb
gözlərim sevgilə dolu,

bir gün desələr ki,
gözlərin dolub,
sıxsam gözlərimi
sevgi töküləcək
yaş əvəzinə



downloaded from KitabYurdu.org

***

Gedəkmi? ...
gedəkmi, gülüm,
yığışıb gedəkmi,
çıxıb gedəkmi.

Soyunub
köhnəlmiş xatirələri,
tərki - dünya olub
köçüb gedəkmi

Gedəkmi?
atıb bu dünyanı
ölüb gedəkmi

Dayanıb durmadan
atıb hər şeyi,
unudub hər şeyi
baş alıb gedəkmi,
çıxıb gedəkmi.

Gedəkmi – sevəkmi
bir - birimizi





downloaded from KitabYurdu.org

### *Geberiyorum kederden*
### *(N. Hikmət)*

Yenə də darıxıram,
bir az da dalğınam
hər zaman olduğu kimi.

dəniz qırağındakı
səkilərin üstündə
“sevgi məktubları”,
məhəbbət romanlarından
maraqlı görünür mənə:
S üstəgəl M bərabərdir
oxlanmış ürək – hər birisi
bir sevginin
sentimental mənzərəsi,

mən həsrətdən ölürəm.

sonra xəyanət sözünü
oxuyuram səkilərin üstündə,
sonrasa axtarıram
öz adımı, toplama işarəsini,
bir qızın demədiyi sözləri,
açmadığı ürəyinin rəsmini,



downloaded from KitabYurdu.org

mən kədərdən ölürəm.

yenə də darıxıram
hər zaman olduğu kimi,
bir az da dalğınam
və həsrətdən ölürəm
və kədərdən ölürəm.



downloaded from KitabYurdu.org

***

***V.B. Önərə***

Yanağında göz yaşı,
ağlama gözəl, ağlama.

Sürüşdüm yer üzündən,
sürüşdüm göz yaşı tək.

Ağ üzündən göz yaşı
sürüşür, gözəl, yıxılır;
yerlə göy arasında.

Sürüşdüm yer üzündən,
yıxıldım
göz yaşı tək,
asıldım göy üzündən.

Ağ üzünə astaca
hopur acı göz yaşı,
sil gözünün yaşını,
ağlama, gözəl, ağlama,

hopuram yer üzünə,
hopuram yavaş - yavaş,
hopuram yer üzünə,
hopuram göz yaşı tək.



downloaded from KitabYurdu.org

***

Əlacsızlıqdan
sevdiyi adamdan
küsən,
küsüb görünmək
istəyən,
küsüb sevilmək
istəyən
yeniyetmələr kimi
küsdüm
bütün sevdiklərimdən.

“Torqovı” küçəsində
o yana, bu yana
gəzişən adam,
beş bacının bir qardaşı,
atanın, ananın yeganə oğlu,
bir oğulun atası,
sən kimsən, nə istəyirsən,

hara gedirsən.

Bu gün
yenə də



downloaded from KitabYurdu.org

bir sevdalı baxışdan,
dəniz havasından,
bir də
batan günəşdən
sonra
unutdum ölümü,
sevdim həyatı.



downloaded from KitabYurdu.org

***

Yağır qar dənələri,
bir - birinin bənzəri,
yığılıb yıxıldığı yerə
dönərlər qar topalarına,
atılarlar gözəllərə
sevgi ümidilə,
atılarlar, gözəllərin üst - başında
dönərlər çiçəyə, gülə.

Əridikcə qar dənələri
solar güllər, çiçəklər də
gözəllərin üst - başında,
amma bir sevgi haqqı qalar
əriyən hər qar dənəsində.

Yağan qar dənələrinə
üzüm toxunmaq istər,

ayaqlarım yerimək,
yerimək istər
toxunmadan





downloaded from KitabYurdu.org

qar dənələrinə - sevgi ümidinə,
gül - çiçək topasına.

Yağır qar dənələri,
ayrı-ayrı olsalar da
eyni taleli.



downloaded from KitabYurdu.org

***

Bayıl türməsindən
bir az aralı
xoşladığım park:
qışdan sonra məyus ağaclar,
futbol oynayan uşaqlar,
Sovet İttifaqı Qəhrəmanının
daş abidəsi,
bir də üzümə dikilən
soyuq baxışlar.

Bayıl türməsindən
bir az aralı
xoşladığım park:
üzü yaza
çiçəkləyən ağaclar
gülümsəyir sanki,
üzümə dikilən baxışlar
daha yad deyil,
gözlərdə
"bu adamı hardasa görmüşəm"
ifadəsi,
bircə dəyişməyən
Sovet İttifaqı Qəhrəmanının





downloaded from KitabYurdu.org

daş abidəsi,
yox, o da dəyişib
bir az deyəsən,
gülümsəyir sanki daş baxışları.

Bayıl türməsindən
bir az aralı
xoşladığım park,
parkdan aralı
bayıl türməsi,

tikanlı məftillər üstündə
quşlar azaddır.



downloaded from KitabYurdu.org

***

Yanımda
kiminsə olmasını istəməzdim
dənizi seyr edərkən,
bir dəniz olsun,
bir dənizdən ayrılmayan
qağayılar,
bir mən,
birdə saçlarımda
dəniz mehi.

Axx...
nə qədər azadam,
başımın üstündə
göy üzünün sonsuzluğu.

Qələbə məqsəd deyil
savaş olsa da,
mən
sadəcə yaşamaqdayam.



downloaded from KitabYurdu.org

***

İnsana oxşamayan
heç nə görmədim,
heç nə görmədim
insana oxşamayan bu yer üzündə;

budaq - budaq ucalan ağaclar,
yarpaq - yarpaq qocalan ağaclar,
sükuta qərq olmuş bina:
sakitlik içində təlatüm,
məhəbbət, nifrət,
papiros tüstüsü, araq qoxusu...

Insana oxşamayan
heç nə görmədim
bu yer üzündə,
açılıb - örtülən qapılar –
təngnəfəs bina,

köksümdə çarmıxa çəkilmiş
ürək.

Açın qapıları,
Açın siz Allah,
boğuldum axı.



downloaded from KitabYurdu.org

***

Gecə
yuxuda sıxıb özümü
bir şərab qədəhinə
içmək istədim,
əllərim əsdi.

dünya
hamıya ümid verən gözəl tək,
sıxıb məni
bir şərab qədəhinə
son damlayadək çəkdi başına,
mənsə
kəsilmiş ilan başı tapdayırdım
dişlərindən qorxa – qorxa.

Səhər
yuxumu yozmaq istədim,
yoza bilmədim,

güzgüyə baxdım;
dodaqlarım çatdamış,
güzgüdə qan ləkəsi.

Sildim qan ləkəsini,
güzgüdə göz yaşları,





downloaded from KitabYurdu.org

kimin göz yaşlarıdı
güzgüdə görən,
kimin göz yaşlarıdı,
mənim üzüm gülür axı.

Sildim göz yaşlarını,
güzgüdə
yenə göz yaşları,

içimdə
hıcqırıqlar – çiliklənmiş güzgü.



downloaded from KitabYurdu.org

***

Yenə payız gəlir,
dönür əhvalım,
soyuyur qəzəbim, sönür nifrətim.

Bu gün iş otağımın
"kvadrat" pəncərəsindən
gördüm payızı,
kövrək ağaclara yağan yağışı,

mehdən asta - asta əsən budaqlar
islanmış gözəlin hörükləridi,
islanmış gözəlin telidi, sanki.

Neynəyim,
yenə də dönür əhvalım,

bu gün gözlərimdə
çərçivəyə salınmış
canlı bir rəsmdi payız,

bu gün otağımdan
asılmış payız.



downloaded from KitabYurdu.org

***

***Motsarta***

Necə yazdın Rekviemi,
ölümün nə gözəl olduğunu
görüb yazdınmı, yoxsa
yazdığın Rekviem öldürdü səni.

Ölümə dediyin ağı idimi,
yoxsa ölümə gülürdün,
ya ölümün nə gözəl olduğunu
anlatmaq istəyirdin.

Nə güldürürdü səni,
bəs nə öldürdü?

Bir ölüm havası çalın,
unudum hər şeyi,
unudum olub keçəni,
unudum dayanıb baxanı,
görməyim yoldan keçəni,
tük bassın üz - gözümü,
saçlarım uzanıb dəysin çiynimə,
açım yaxamı,



downloaded from KitabYurdu.org

çıxarım boynumdan qalstukumu,
oynayım, oynayım
qan - tər içində.

Bir ölüm havası çalın,
bir ölüm havası çalın,
yaşamaq istəyirəm...





downloaded from KitabYurdu.org

***

Torpaq - addım səsləri
şəhər – adamlar
yol – ayaq izləri
dəniz – qağayılar
qağayılar sevdalı
ağac – yarpaqlar
yarpaqlar – solmuş
ürək – çatdamış...

gözlər, baxdın
nəyi görmədin?



downloaded from KitabYurdu.org

***

Zaman – axır
keçmiş – olanlar
olanlar – təsəlli
gələcək – hələ olacaq
olacaq – ümid

İndiki zaman,
bəs sən hardasan?



downloaded from KitabYurdu.org

***

Asılanda da
asılasan göy üzündən,
dartalar ayaqların altından
yeri kətil kimi,
dönəsən göy adamına,
qucaqlayasan fəzanın sonsuzluğunu,
azadlığın ən ucasını, ən ulusunu,
qoşulasan ulduzlara, amma
ulduz olmayasan,
ulduz olmaq elə kətil olmaqdı.

Çıxdım stulun üstünə
əlim tavana çatsın deyə,
elə bil
qalxdım dar ağacına,
elə bil
ayaqlarımın altındakı - kətil,

qorxdum,
yer adamı kimi ölməkdən
qorxdum,

nolar, yer kürəsi,
bir az kənara çəkil.



downloaded from KitabYurdu.org

***

Dekabırın ikisi
ad günümə yağan qar
təsəlli oldumu sizə,
yaraşdımı boy - buxunuza,
payızdan sonra
rəngi avazımış, solmuş ağaclar.

Mən yenə sevinə bilmədim
nə ad günümə,
nə yağan qara,
örtdü
axtardığım ayaq izlərin,
sevinə bilmədim
bu bəyazlığa.

Dekabırın ikisi
ad günümə yağan qar
halal xoşunuz olsun,
gəlin görkəmində göyçək ağaclar,
sizə bağışlayıram
ad günümün
bu bəyazlığın.



downloaded from KitabYurdu.org

***

Hər gün
yanından keçdiyim
həbsxana divarlarının
o tayında nələr olur,
ora qədər nələr olub...

amma orda
insanlar var – hər biri
öz taleyinin baş qəhrəmanı,
orda həyat var,
həyat varsa
ölüm var
həsrət var
kədər var
sevinc var
................

amma orda
həsrət çox
kədər çox
sevinc az
ölüm də
kimsəni qorxutmaz.



downloaded from KitabYurdu.org

divarların bu tayında
yanımda can verən
vaxtın kədəri,
divarların o tayında
ölən vaxtın bəxş etdiyi
ümid – təsəlli

divarların o tayında
ümidlər çox,
sevinc tək - tək,
bu gün
açdım bütün qapıları,
açdım dustaq qapıları tək.



downloaded from KitabYurdu.org

***

uzaqdan gələn
qərib səs kimi
tanıya bilmədim özümü
bu səhər yenə

sanki mənim yox
sığınıb mənə
can verən yad adamın
səsiydi səsim

tanıdın səssizliyimi
doğma səs kimi
doğmam əzizim
zəng edib sənə
danışmasam da

sevgidən doğulan sükut kimiyəm



downloaded from KitabYurdu.org

***

onda qar yağırdı ha –
yadındamı

sürüşdün
tutdum əllərindən
fürsət gözləyirmiş kimi sanki
sığındın əllərimə
yadındamı -
onda qar yağırdı ha

nələrdən danışmadıq yol boyu
o gün:
kim necə danışır
kim necə gülür
kim kimi istəyir
kim kimdən küsür
nələrdən danışmadıq allah
təkcə özümüzdən savayı
yadındamı –
onda qar yağırdı ha

gəlinə oxşatdın
yol boyu





downloaded from KitabYurdu.org

qarla örtülmüş ağacları
deyəndə
ən gözəl gəlin sən olacaqsan
utandın a
yadındamı -
onda qar yağırdı ha

neçə dayanacaqlıq yolu
piyada gedib
dayandıq evizin kandarında
sevdalı günlərin ümidilə
ayrıldıq
cütləşən əllərin sərhəddində
yadındamı -
onda qar yağırdı ha

uçurdu qar dənələri
uçurdu günləri ayları rüzgar
onda iyirmi yaşımız
olardı ya olmazdı
yadındamı -
onda qar yağırdı ha

onda qar yağırdı ha



downloaded from KitabYurdu.org

***

dəyişəcək əllərin səmtini
dəyişəcək
dəyişən andan
əllərinin əsirinə çevriləcəksən

aparacaq əllərin səni
aparacaq
üzü göy üzünə
bir dəfə
inansan ölümünə

bir dəfə
inandın ölümünə
dəyişəcək çox şey gözlərində
alıb başını əllərin arasına
sıxsan gözlərini
öz ölümünə
ağlamış olacaqsan

bir dəfə
öz ölümünə ağlamış oldun
əllərin
göz yaşlarının əsirinə dönəcək



downloaded from KitabYurdu.org

bir dəfə
inansan ölümünə
bir dəfə
öz ölümünə ağlamış oldun
dəyişəcək əllərin səmtini
dəyişəcək
göz yaşlarının dalınca

amma
öncə
göy üzü dəyişəcək gözlərində
göy üzü



downloaded from KitabYurdu.org

***

yağışın altında
bir sən idin bir də mən

saçların islanıb
dəyir üzümə
əllərin əllərimə
gözün gözümə
yarpaqlar uçuşur
düşür izimə

yağışın altında
bir sən idin bir də mən

sevincimiz sahil boyu –
islanmışdı yağışda
kimsə xəbər tutmaz bizdən
qorxma gülüm
gizlənmişik biz yağışın altında

yağışın altında
bir sən idin bir də mən

yağış yağır
şəhər qaçıb yağışdan



downloaded from KitabYurdu.org

şəhər qaçıb
dayanmışıq islanmışıq donmuşuq
asılmışıq bir sevdalı baxışdan

yağışın altında
bir sən idin bir də mən

yağış yağır
dünya qaçır yağışdan
dünya qaçır zaman axır
bir dünyasız
bir zamansız dünyada
biz qalırıq sevgilərin adından
o yağışın altında

yağışın altında
bir sən idin bir də mən



downloaded from KitabYurdu.org

***

qapısı
yarımaçıq şkaf
yan - yana stullar
masanın üstündə əllərim
bir az öndə
dağılmış vərəqlər
telefon aparatı
təqvim
qlobus – yerin modeli
və
səhərdən oyanmış xatirələr –
səssizliyimin mənzərəsi

həyətdə
idman oyunları
qələbə sevincindən
doğan səs - küyün
otağımdakı proyeksiyası
sükut

mən
nədənsə məğlub olanları sevirəm



downloaded from KitabYurdu.org

qatil olacağıma
bir daha inanmadım
oyatdım
sevgilərin bloknot yaddaşını

vərəqlər
dilim - dilim doğrayır
otağın səssizliyini
eşidirəm
sükutun iniltisini

mən ki qatiləm



downloaded from KitabYurdu.org

***

yumub gözlərimi
gözlərimdən keçən
içimə süzülən işığın
qaranlığı necə parçaladığını
duyuram dostum

bilirsənmi
səhər axşam
işığı gözlərilə içən adamın
taleyini yaşamaq necə zor

necə ağırdı
qaranlığı parçalamaq
və yaşamaq

bilirsənmi dostum
bilirsənmi
gözlərimin çatladığını?





downloaded from KitabYurdu.org

***

görən
nə qədər ötər
ağlım kəsəni

yaşamaq başımı necə qatıbsa
az qala
ölmək də yadımdan çıxıb

bağışla sevdiyim
bağışla nolar
səni sevməyi də yadırğamışam

görən
neçə sevda keçər başımdan
ağlım kəsəni
bu hansı ömürdür
mən yaşayıram

görən
nə qədər ötər
öldüyüm gündən



downloaded from KitabYurdu.org

***

bu axşam
yaşamaq zor
sevdiyim bu şəhərdə

nə çox adam varmış
bu yer üzündə -
birdən ağlıma gəldi
bu gün şər qarışanda
sevdiyim kəsi axtardım
üzünü görmədiyim
adamlar arasında

yağışın altında ayaq saxladım
məni
ölümünə döydü bu yağış
sonra yağdı səhərədək
yağdı bu yağış

bu axşam yaşamaq zor

bu axşam
ölümünə sevdim yenə də
sevdim
bu yağışlı şəhərdə





downloaded from KitabYurdu.org

***

sükut – nə gözəldir
yanımda nə varsa
udur səssizlik
pəncərəmdə həyat şəkilə bənzər

toxunmaz qəlbimə
pozarsa sükutu
pəncərəmi döyəcləyən yağış damcısı
küləyin sirli
çox sirli vıyıltısı -
illah ki
şəfəq çökə axşam ola

bağışla sevdiyim eşitməmişəm
bayaqdan dayanıb ağlayırmısan
ağlayırmısan  gözəl – sükuta bənzər

səsin damcı - damcı
yağır səssizliyə...
damcı - damcı pozulur sükut



downloaded from KitabYurdu.org

***

adam
belə birtəhər olur e
payızdan sonra:
bir az sentimental
bir az kədərli
doğrusu
bir az da sevincə oxşar
nəsə olur adamda

uçurur saralmış yarpaqları
payızdan sonra əsən küləklər
qonur küçələrə qonur sulara
bəzən də
son dəfə vida edirmiş kimi
sığınır adamlara
ölüm hökmü oxundumu yarpaqlara?

adam
belə birtəhər olur e
payızdan sonra

kədərli nəğmədir pəncərə şüşəsində
payızdan sonra əsən küləklər



downloaded from KitabYurdu.org

qoşulub o nəğməyə
uçub gedəsən
sonra da
yeni bir nəğmə olub da
dönəsən üzü bu yana
hardasa bir ömür yetdimi sona?

adam
belə birtəhər olur e
payızdan sonra



downloaded from KitabYurdu.org

***

***Müəllimim şair***
***Məmmədhüseyn Mərdana***

qəribə bir şirinliyi olur
gözləməyin

fərqi yox
kim olur olsun
neçə il əvvəl gözlədiyim kimi
gözləyirəm yenə də

dayanacaqlarda əyləyən avtobuslarda
və ya
açılıb - örtülən metro qapılarındakı
ümid eyni
neçə il əvvəl olduğu kimi

məndə dayanmayan adamların
sən olmadığına sevinirəm doğrusu

bir söz deyim incimə
açığı:
fərq etməz
daha gəlməsən də
həsrətin nə gözəl olduğunu
anladım
səni gözləyəndə



downloaded from KitabYurdu.org

***

bağışlayarsan məni bilirəm
bağışlayarsan
bir gün
çıxıb getsəm sakitcə

örtərsən qapını arxamca

məni üzünə bağlayan kürəyim
üzbəüz mənzillərin qapısı kimi
gələr sənə:
yaxın və uzaq
eynən qonşu qapısı kimi

əvvəl nifrət eləyərsən mənə

sonra göz yaşı tökərsən gizlicə

sonra acığın soyuyar bir az

sonra yazığın gələr mənə

sonrasa istəyərsən məni yenə də
istəyərsən özünü qınaya - qınaya



downloaded from KitabYurdu.org

sonra da

sonra da bağışlayarsan məni bilirəm
bağışlayarsan
bir gün çıxıb getsəm sakitcə

bağışlamazsan məni bilirəm
bağışlamazsan
bir gün atıb getsəm səni gizlicə





downloaded from KitabYurdu.org

***

doqquz il həbs kəsdilər
çox sevdiyim
adama
üzünü görmədiyi
beş aylıq körpəsi
var

axşamçağı
nə gözəlsən
parkda
rastıma çıxan
yarısı qırmızı
yarısı sarı çiçək

iftar süfrəsinə
oturublar adamlar
mənsə
dayanmışam sənin qarşında
bəlkə
dua eləyəsən o zavallıyçın
Allah daha tez eşidər səni
dilini bilmədiyim
yarısı qırmızı
yarısı sarı
çiçək



downloaded from KitabYurdu.org

axşamçağı
mənə səndən doğması yox
bu şəhərdə

bəlkə
səndən gözəli yox
bəlkə
məndən dəlisi yox
axşamçağı
bu şəhərdə
adını bilmədiyim
yarısı qırmızı
yarısı sarı
çiçək

adını bilmədiyim
dilini bilmədiyim
yarısı qırmızı
yarısı sarı
çiçək

axşamçağı nə gözəlsən
bütün günü ağrıdığım
bu şəhərdə





downloaded from KitabYurdu.org

***

bəzən
darıxıram adam çox olan yerlərdə
qəribsəyirəm elə bil

inanmıram nəyinsə cansız olduğuna
biganə qala bilmirəm
parkdakı skamyaların səssizliyinə

kimsənin taleyində gözüm yox
kimsəyə qıymaram öz taleyimi

azadlıq haqqında daha çox
türmələrdə düşünürlər yəqin ki
ən çox sevgiyə layiq
pəncərə şüşələri

nəyinsə cansız olduğuna inanmıram

yaşaya bilmədim
bayıl türməsinin yanındakı evimdə
yığıb uşaqlarımı köçdüm yenə də
köçdüm dəniz görünən bir yerə

ən çox sevgiyə layiq
pəncərə şüşələri
nəyinsə cansız olduğuna inanmıram



downloaded from KitabYurdu.org

***

*Şəhidlərimizin*
*xatirəsinə*

deyirlər
sevgidən üzülər adam
üzülər üzülər
nazilər adam

əyilər sevgidən biri - birinə
əyilər adam
lap elə sevgidən
qırılar adam

sevgidən baş - başa verən ağaclar
quruyan  ağaclar qırılan ağaclar –
bu da bir məhəbbət nağılı vallah

Şəhidlər Xiyabanında
baş - başa iki sevgili

dastanı həqiqətə çevirən bacı
ölümü övlad tək böyüdən bacı
böyüdüb böyüdüb ucaldan bacı



downloaded from KitabYurdu.org

bir üzü qız bir üzü gəlin
sevgi piri sədaqət bütü
Fərizə bacı

Şəhidlər Xiyabanında baş - başa iki sevgili
Şəhidlər Xiyabanında şəhid ürəyim



downloaded from KitabYurdu.org

***

alın yazısına sığmaz
alın yazısından kənarda
axtarar insan taleyini

alın yazısından kənarda
yaşamaq
sevmək
ölmək
istər

yəqin
hələ bu vaxta qədər
heç kəs axıra kimi
sevə bilməyib öz taleyini

qadınım
danılmazım
talesizliyim mənim
səni necə çox sevdiyimi
unutmamısan ki?



downloaded from KitabYurdu.org

***

tutacam yenə də
gizli baxışlarını -
utanacaqsan
ancaq
salam verib
gülümsəməyə gücün çatacaq –
bilmirəm nədən
sevgi yasaqmı bizə?

yoxsa
uydurmusan məni özündən

keçib gedəcəksən
tez - tez yanımdan
günlər də
beləcə ötüb keçəcək
yüz dəfə
min dəfə
olduğu kimi
səni də
özümdə azdıracağam
neyləyək sevgi yasaqdır bizə



downloaded from KitabYurdu.org

belәcә keçәcәk günlәr
belәcә
mәn sәni özümdә itirәcәyәm
nә vaxtsa yenidәn
xatirә üçün
bәlkә dә
lap elә tәsәlli üçün
yüz dәfә
min dәfә
sәn mәni özündәn uyduracaqsan

neylәyәk
sevgi yasaqdır bizә...





downloaded from KitabYurdu.org

***

qoxlasam səni
itirdiyin nə olar
iydə çiçəyi
nə qədər ç o x a l a r a m
nə qədər ç o x a l a r a m
qoxlasam səni
iydə çiçəyi

çaşıb vurulsam o gözələ
sevsəm görəsən
kimin sevgisinə şərik olaram

qoxlasam iydə çiçəyini
vurulsam o gözələ
bağışla İlahi
keç günahımdan
nə gəlsə başıma
sevgidən gələr



downloaded from KitabYurdu.org

***

gəzib
özüm özümdə
gəzib də
hərdən içimdəki
zamanı saxlamaq
keçir könlümdən...

anadan uşağa bir qız
tükəndi
uşaqdan cavana bir uşaq
tükəndi
cavandan qocaya bir cavan
tükəndi
qocadan ölümə bir insan
tükəndi
.........
tükəndi
..........
tükəndi

hər şeyin mənasını
sonunda axtar

payızı sevdim yenə də
yarpaqları saralmış ağaclarda
zaman dondu ki?...



downloaded from KitabYurdu.org

***

sahilində dayandığım dəniz
harada tükənər harada bitər
harada qurtarar
məndən başlayan dəniz?
bayılda yaşadığım şəhər evində
yoxsa
atamın anamın yaşadığı
o kənd evində

nə qədər böyümüşəm
kənddən şəhərə
nə çox böyümüşəm – dəniz qədər

həyətimizdəki qara pişiyin
kölgəsinə sığındığı
gül kolunun
bir gecəlik ömrü olur çiçəklərinin

hər axşam
qapımızda təzə çiçəklər açar
hər gecə qapımıza düşən qaranlıq
bir çiçəklik ömür yaşayar



downloaded from KitabYurdu.org

***

dedilər
şeirlərimi oxuyurmusan

bir zaman
məktublar yazardın mənə
fərqinə varmadan yazdıqlarının
görüşəcəyimiz
günləri gözləyərdim -
yadındamı?

yazdığın məktublar
oxuduğun şeirlərə bənzər -
deyilmi?

sən də
sevgilərdən göz yaşlarından
sevən adamın yalqızlığından
bir də ayrılıqlardan yazardın -
xatırlayırsanmı?

illər ötdükcə
mən səni daha çox xatırlayıram



downloaded from KitabYurdu.org

oxuyurmusan şeirlərimi
tapa bildinmi özünü şeirlərimdə
mənə oxşayanı vardımı yazdıqlarımın?

söylə
heç olmasa
sevə bildinmi şeirlərimi?



downloaded from KitabYurdu.org

***

unudulan unudulmayan görüşlərə
sərf olunmuş ömrün anlarından
nə qaldı ki
nə qaldı ki
yaşanan sevdalardan savayı

yaşanan sevdalardan
nə qaldı ki
nə qaldı ki
təkəm - seyrək xatirələrdən
bir də
bir də kimsəsizlikdən başqa

mən səni
hamıdan çox sevdim vəfalım
çox sevdim
mən səndə
övladım kimi qaldım





downloaded from KitabYurdu.org

***

isti yay günlərinin birində
kondisionerin soyutduğu
sərin otaqda
günəşin qızdırdığı
isti küçədə olmaq istəyi
keçdi qəlbimdən -
yəqin ki
daha çox
həyata bənzədiyindən

gözlərin
tez - tez dolub boşalar
dolan nə boşalan nədisə
boşalmaz heç
batar gizlənər gözlərində

batan gizlənən nə varsa
xoşlaram
axşamçağı
batan günəş qismində

səhərlər
doğan günəş də gözəl olur



downloaded from KitabYurdu.org

xüsusilə rəngi – narıncı
bəyaz rəngi də xoşlaram
daha çox qar yağanda

günəşi qarı yağışı küləyi
acını şirini sevinci kədəri...
xoşlaram
sevərəm yaşamaq qismində
yəni həyat qismində





downloaded from KitabYurdu.org

***

bir - birinə
sıxılmış əllərin kölgəsi
uçuşa bənzər

nəsə
heç anlaya bilmədim
uçuşun nə olduğunu

uçan quş uçan təyyarə
nə bilim nə
göstərməyin mənə
fizika da lazım deyil
anlamaram onsuz da

Allahın şəninə
yazdığım şeirdən sonra
yuxuda görmüşəm
uçuşun nə olduğunu –
kəpənək uçuşu
ya da
enən yarpaq misalında

çoxlarının asanlıqla anladığını
anlaya bilmədim nədənsə



downloaded from KitabYurdu.org

bu an
kaş dahi bir rəssam olaydım
ya da dahi bir maestro
payızda külək əsəndə
yarpaqları saralmış ağaclar arasında
əllərimdə skripka
külək də
dağıdaydı saçlarımı arxaya -
uçuşa bənzər deyilmi?



downloaded from KitabYurdu.org

***

***Oğlum Nemana oxunmayan şeir***

mənim yıxılmağım
yıxılmaq deyil oğlum

dəyişəndə
çox zaman dəyişmənin romantikası
çəkir adamı – dəyişirsən

hər zaman
ağıllı olmaq da
bir şey deyil oğlum
hərdən
gərək bir az dəli olasan
lap elə
içkiyə qurşanasan
ölüncə sevəsən
dəyişəsən ev - eşiyini
dəyişəsən iş - gücünü
xülasə
dəyişəsən dəyişə bildiyin nə varsa
dəyişəsən – azad olasan



downloaded from KitabYurdu.org

mənim dəyişməyim
dəyişmək deyil oğlum
mənim dəyişməyim təzələnməkdir

qorxdum ay Allah
qorxdum
min il sonrakı balamçın
qorxdum

mənim yıxılmağım
yıxılmaq deyil oğlum
mənim yıxılmağım uçmaqdır
yıxılıb düşdüyüm yerə





downloaded from KitabYurdu.org

***

qar – yağır
gözlər – gözəllik sevgi
axtarır
gündüz – gecə intihar etmiş
axşam – gündüz qara geyinmiş

qar gözlər gözəllik
gündüz axşam gecə
yaşamaq bərabərdir
sevmək üstəgəl
yavaş - yavaş ölmək sadəcə



downloaded from KitabYurdu.org

# Mini şeirlər

dar ağacında
yaşayan görmüsənmi
yarpaq misalı?

***

əlini əlimdən üzdün
əllərimdə yaşayırsan indi

***

mən yağışı sevirəm
yağışsa pəncərəmi

***

gözəl düşmənim
mən səni sevməyə bilmərəm
gözəl olduğundan

***

dəriləndən sonra da
ətri gözəl olur güllərin

***

ölüm – nə tez yayılırmış
sükutun səsi



downloaded from KitabYurdu.org

***

yaxınlaşdım
dənizə uçdu qağayılar

***

hamının olan qadının
bətni kimsəsizliklə dolar
doğar
balası kimsəsizlik olar

***

örtdüm pəncərəni
qapı da bağlı
azadlıq -
zindan da olsa da belə
sevdiyin qadınla
təklikdə qalmaqdır

***

göy üzü islanmaz
yağışdan sonra
yağışdan sonra bulanmaz çirkaba
batmaz göy üzü



downloaded from KitabYurdu.org

***

Allah - ən böyük Tənhalıq
Allah – sonsuz Azadlıq

***

daha çox sevim deyə
tərk etdim səni

***

yollar usanmadı heç
usanmadı tapdanmaqdan
təkcə yol qırağındakı ağaclar
qorxmaz tənhalığından

***

yaşanan hər sevgidə
bir az azaldım
azala - azala da çoxaldım

***

dünya məndən böyükmü?

***

Allah sənə ürək verib
yanırsa
söndür ürəyini – YAŞA



downloaded from KitabYurdu.org

***

yoruldum
saçlarımı uzadım gərək

***

dekabırın ikisi – doğulduğum gün
kimdir qatilim

***

işığı söndür
daha yaxşı görüm səni

***

qapılar
insanın özündən çıxış yoludur

***

gəlmə
səni gözləmək də gözəldir

***

sən də
barışdın yoxluğumla



downloaded from KitabYurdu.org

***

bu gün
heç yerdə yaşamaq istəmirəm

***

Allah
başımı uca elə
dəyəndə
güllə alnıma dəysin

***

unuduram səni
bağışla
yeni sevdalar keçir başımdan

***

gizləndim
özümü axtardığım yerdə



downloaded from KitabYurdu.org

# mərd kişinin duası
# və yaxud yarımçıq əsər
# *(şeir – esse)*

*“Ata həyatində bir ağac vardı” –*
*atamın xəstəxanada müəllim*
*dostunun bağışladığı dəftərxana*
*kitabına yazmaq istədiyi əsərin*
*ilk və son cümləsi*

nədən yazmaq istəyirmiş atam

uşaqlığı müharibə illərinə düşüb atamın
babam kolxoz sədri işləyirmiş
əvvəl komsomol olub
sonra prokuror
başına çox işlər gəlib kişinin
hərə bir söz deyir:
kimisi
“çox sərt adam idi
lap Stalin kimi”
kimisi
“yaxşı adam idi rəhmətlik
kəndi müharibədən o çıxardı
nə bilim



downloaded from KitabYurdu.org

filan - filan işlər gördü" –
söyləyir onun haqqında

ata həyətində bir ağac vardı –
yazırdı atam
nədən yazmaq istəyirmiş atam

anam cavanlıqda xəstələnir
dörd il xəstə yatır
sağalacağına ümid qalmır
atam
sədaqətlə gözləyir onu
sonra
iki bacım bir də mən
gəlirəm dünyaya –
beş bacının bir qardaşı

ərköyün böyüyürdüm
sərt adamdı əsəbi adamdı atam
amma
nədənsə bir elə dəyməzdi
xatirimə

fikrini
tez-tez dəyişməsi də var



downloaded from KitabYurdu.org

atamın
"dul arvad doğub ondandır" –
deyir anam

yaxşı ədəbiyyat müəllimi idi
nədənsə erkən çıxdı pensiyaya
atdı
müəllimliyin daşını
şagirdləri
indi də çox sevir onu
sərasər otuz il yaşadı
şəhərlə kənd arasında

ata həyatində bir ağac vardı –
yazırdı atam
nədən yazmaq istəyirmiş atam

iki dəfə ev - eşik qurub atam
kəndimizdə
birini ata həyatində
birinisə bir az aralı
o həyətin qızı
qardaşlığa götürmüşdü atamı -
kişi qadın idi Qızbəs bibi
təzəlikcə rəhmətə gedib



downloaded from KitabYurdu.org

kəndimizin
60 yaşlı qız qarısı
boynumu qucaqlayıb
“qardaş” dedi mənə
nənəm ölənə qədər
qardaşı olmadığına görə
acıyardı öz taleyinə
yaman çox istəyirdilər qardaşlarını
kəndimizin qızları – yadımdadır

ata həyətində bir ağac vardı –
yazırdı atam
nədən yazmaq istəyirmiş atam

qocalar
namaz üstə dua eləyərkən
“bizi aclıqla
sınağa çəkmə Pərvərdigara” -
söyləyərdilər kəndimizdə
əmimoğlu deyir ki
ilan əti yeyirdi
cəbhədə əskərlər
it ətindən kabab da çəkirmişlər
“bizi bir tikə çörəyə görə



downloaded from KitabYurdu.org

namərdə nakəsə möhtac eləmə ilahi"
deyə dua eləyər
atam
yeməkdən sonra
mərd kişinin duası deyirəm
mən bu duaya

bir hind filmi
var idi: "Bir tikə çörək"
yaman xoşuma gələrdi
uşaq vaxtı
bir tikə çörəyə görə
caniyə çevrilir əsərin qəhrəmanı
hind filimlərinin qəhrəmanlarına
oxşamaq istəyirdim o zamanlar
sonra
anladım ki
hər kəs elə öz taleyinin
qəhrəmanıdır

ata həyətində bir ağac vardı –
yazırdı atam
nədən yazmaq istəyirmiş atam



downloaded from KitabYurdu.org

orta məktəb illərində
bir hekayə oxumuşdum:
“Səyad müəllimin oğlu” –
müəllifini xatırlamıram
böyüyür
yazıçı olur Səyad müəlimin
yeganə oğlu
valideynləri yolunu gözləyir
ümidlə qocala - qocala
az - az baş çəkə bilir onlara
ata - ananın yazıçı oğlu

ata həyətində bir ağac vardı –
yazırdı atam
nədən yazmaq istəyirmiş atam

babam
on ildir köçüb dünyadan
atam
yaşayır öz ömrünü
anam
tez - tez xəstələnir
...................
“hayıf ki insanlar ölürlər” –



downloaded from KitabYurdu.org

son zamanlar
təəssüflə fikirləşir
Səyədulla müəllimin yazıçı oğlu

nədən yazmaq istəyirmiş atam
“ata həyətində bir ağac vardı!” ...



downloaded from KitabYurdu.org

# Sonsuzluq
## *(şeir – esse)*

### 1. Başlanğıc

dayanıb
otağın pəncərəsindən
seyr edirəm səssizliyi
könlümün dəli vaxtında
uzaqda dənizlə sevişən göy üzü...

hər şeyin sonu yox
sonsuzluğu var

parça - parça edilib
küçəyə atılmış şəkil – dayanmış zamanı
oynadır külək
heç nə yox olmur ki
hər şey dəyişir azaldıqca
lap elə
kiminsə parça - parça edilib
ayaqlar altına atılmış
şəkili kimi
zibil qutusunda
nəsə axtarır zavallı qoca



downloaded from KitabYurdu.org

kimsə pul uzadır ona
imtina edir nədənsə
uzaqlaşdıqca hüznlü addımlarla
sarsılan kimi görünür qoca

çoxalmırıq yaşadıqca
yalandır böyümək
qocalıq azalmaq əlamətidir
hər gün yaşamaq
hər gün azalmaqdır əslində
hər gün ölməkdir bir az

heç nə yox olmur ki

dənizə baxıb
xoşbəxtlik barədə düşünərkən
qara bir qarğa döyəcləyir
maşının pəncərəsini
nə vaxtsa
eynən belə bir hadisə
olubmu görən:
kimsə dənizə baxıb
olum və ölüm
barədə düşünərkən



downloaded from KitabYurdu.org

qara qarğa dimlikləyibmi
pəncərə şüşəsini
qağayılar dəstələnib uçublarmı
düşünənin başı üstə
üzü dənizə...

hər şeyin sonsuzluğu var

bazar günü olduğundan
həbsxanaya tələsir adamlar
sanki
azadlıq əvəzinə
türməyə də çörək daşıyırlar

bir qatilin quş ölümünə
acıdığının şahidi oldum

bəzən anlaya bilmirəm
adi hətta çox adi həqiqətin
nə olduğunu
qaydasız döyüşə bənzəyir həyat
görünür
qaydaları pozduqca
daha çox
azad olur insan



downloaded from KitabYurdu.org

elə bu dəqiqə
atıb hər şeyi çıxıb gedəsən...
gedib
heç olmasa qoşulasan
boş vaxtlarını çayxanalarda öldürən
şair dostlarına
"soobrazim" eləyib
özünü verəsən kafelərin birinə
araqdan - zaddan içib
şeirdən - meirdən danışasan

ya da
çıxıb baş çəkmək istəyirəm
tilovuna düşən balaca balıqlara
sevinən adamların yadlığına

mən dənizə baxıb
sevindim
uzaqda dənizlə sevişən
göy üzünə sevindim
elə o anda
acıdım tapdadığım
qarışqa taleyinə

heç nə yox olmur ki



downloaded from KitabYurdu.org

bir - birinə sıxılmış
sanki
biri - birində ərimək
yox olmaq istəyən
qızla oğlan ötür
asta - asta səssiz - səmirsiz
əsil sevgi nədirsə
yəqin ki
ehtiraslar sönəndən sonra başlar

tabut aparırlar
qarşı tərəfdən gələn adamlar
nədənsə
həmişə mənə elə gəlir ki
bu an
təkcə tabuta söykənən
çiyinlərdən ibarət olur insanlar

hamıdan öndə mərhumun
qara çərçivəyə salınmış şəkli
bəlkə də
kiminsə nə vaxtsa
havaya sorulmuş şəklinin
böyüdülmüş təsviridir
bu şəkil



downloaded from KitabYurdu.org

heç nə yox olmur ki
hər şeyin sonu yox
sonsuzluğu var

## 2. Son

dayanıb
otağın pəncərəsindən
seyr edərkən səssizliyi
xoşbəxtlik barədə düşündüm
sevindim
uzaqda dənizlə sevişən göy üzünə
acıdım
tapdadığım qarışqa taleyinə...

## 3. Sonsuzluq

nə axtarırsan qara qarğa
nə axtarırsan pəncərə şüşəsində
hara uçdunuz qağayılar
hara uçdunuz?...



downloaded from KitabYurdu.org

# Vağzal
## *(şeir - esse)*

ayrılıqlardan qorxmuram vağzallarda
heç qorxmuram
qorxduğum ayrı

bu yaxınlarda
neçə ilin ayrılığından sonra
ezamiyyətə gedəsi oldum
dəmir yolu vağzalından
az qala unudulmuş
doğma hissləri yaşadım yenə
vağzalın qəribliyində:

o zamanlar sovet dönəmi idi
Moskva vağzallarının birində
əmim oğlunu aldadıb
500 manat pulunu uddular
"üskük" oyununda
uduzduğu pulun
50 manatını məndən almışdı
bir tanışımı da
Masallı avtobus vağzalında





downloaded from KitabYurdu.org

aldatdılar göz görəsi
başını söykəyib avtobusun pəncərəsinə
ağlayırdı o boyda kişi
gülənlər də tapılırdı
onun bu halına

dəmir yolu vağzalında
bir qadının
oturub səkinin qırağında
hönkürdüyünün şahidi oldum
"pul kisəsini oğurlayıblar
bilet almağa pulu qalmayıb" -
dedilər
bir neçə adam yığışıb
pul verdik ona
sonra məlum oldu ki
bu da bir aldanış
kimsə tanımışdı qadını
demə
şəhərin vağzala oxşar
bir çox yerlərində
tez - tez
"pulunu itirirmiş" bu qadın

aldanışların ilk acısını
vağzallarda dadmışam



downloaded from KitabYurdu.org

ayrılıqlardan qorxmuram vağzallarda
qəribə hisslər keçirirəm
vağzallarda
çox zaman özüm də anlamıram
bir az da
qəribsəyirəm doğrusu
necə deyim
belə hər şey yad kimi görünür mənə:
ora - bura vurnuxan narahat adamlar
qəribə görkəmli qadınlar
divardakı rənglər
yemək qoxusu
qulağı dələn cürbəcür səslər
sanki
hər şey yad hər şey qərib

on iki on üç yaşım olardı
toyuq qızartması sifariş verib
oturub gözləyirdim restoranda
atam təyyarəyə bilet axtarırdı
“Domodedovo” vağzalında
son dəblə geyinmiş qaraçı qız
yanında cavan bir oğlan
yaxınlaşdı



downloaded from KitabYurdu.org

qapqara saçlarımı sığallayıb
üzümdən öpdü
sonra da
baxıb bir - birinə gülümsəyərək
qonşu masanın arxasına keçdilər
doğma adamları görürmüş kimi
sevinirdim
vağzal havasının qəribliyində
gözümü çəkmədən
qaraçıların gülümsər çöhrəsindən

unutmuşam o vaxtlardan
gördüyüm tanıdığım çox adamları
nədənsə hərdən xatırlayıram
gülərüzlü o qaraçıları

ayrılıqlardan qorxmuram vağzallarda

bu yaxınlarda
neçə ilin ayrılığından sonra
dəmir yolu vağzalında
“üskük” oyununu
yol qırağındakı səkidə
oturub ağlayan qadını



downloaded from KitabYurdu.org

yad şəhərdə qəribliyimi öldürən
güləruzlü qaraçıları
rastlaşdığım ilk əxlaqsız qadını
borc alıb
alver etmək üçün
zorla düzəltdiyi pul ilə bərabər
sabaha ölmüş bütün ümidlərinə
ağlayan kişini
nə isə
inamımı zərrə - zərrə sökən uçuran
daha bir para şeyləri
xatırladım
sevgi hissini itirmək qorxusunu
aldanışların acısını
daha nə bilim nələri
yaşadım təkrar
ayrılıqlar barədə düşünmədən

ayrılıqlardan qorxmadım vağzallarda
heç qorxmadım
ayrılıqları
qürbəti
qəribliyi
daima hər yerdə yaşadığımdan





downloaded from KitabYurdu.org

# Gün
## *(şeir-esse)*

qarşıdan yeni bir gün vəd eləyir
səhər tələsmədən işə hazırlaşmağım

bir yandan bu payız öldürür məni

günlərin oxşarlığı
yorur adamı
fərqli görünüm deyə
təzə paltar almaq keçir könlümdən
qarşıdan
ad günüm gəlir
fərqi nə başqa günlərdən
sadəcə
bir az pul xərcləmək lazımdır dostlara
həmən gün
maraqlı görünsün deyə
vəssalam...

ömür
yaşla ölçülməsəydi
yəqin
həmişə uşaq qalardı adam



downloaded from KitabYurdu.org

zaman sırf subyektiv
onsuz da hər şey dəyişir
zamansız da belə
görəsən doğurdan da
ədədi münasibətlər bütün hadisələrin mənası? –
qarışıq fikirlər keçir ağlımdan

bir yandan bu payız öldürür məni

qırmızı işığı yanır işıqforun
avtobusun pəncərəsində
tanış üz – gülümsəyir
yaşıl işıqda ötüb keçirəm avtobusu
arxada qalır köhnə tanış
yaxşı ki görüşmədik
nə danışacaqdıq?
amma
qəribsəyirəm bir az doğrusu
nədənsə
adam keçmişə bağlı

bir yandan bu payız öldürür məni

cədvəlini tuturam iş günümün
onsuz da





downloaded from KitabYurdu.org

çox zaman işlər planla getmir
günün sonunda
zarafat eləyirəm
namaz qılan iş yoldaşımla:
“gün - gündən çoxalır
ibadət eləyənlərin sayı
Allaha inanmaq asandır
dərk etmək çətin”
belə bir sonluqla bitir iş günü

axşam
işdən sonra düşüb
şəhərdə
adamlara baxmaq keçir könlümdən
xoşuna gəlir şair dostumun
“dayanıb adamlara baxıram” – deyəndə
gül satan qadın yaxınlaşıb
nəsə söyləyir
dərilmiş güllərə
həmişə hayıfım gəlib
sonra da deyirlər ki
ömür yarımçıq bitmir

bağışla
gül satan qadın



downloaded from KitabYurdu.org

bu gün
nədənsə halım gül halı deyil

bir yandan bu payız öldürür məni

şüşəsilən qovur
ümidlə özünü
maşının pəncərəsinə çırpan
yağış damcılarını
iri bir avtobus
gurultuyla ötür yanımdan
diksinirəm
qəribə fikirlər keçir beynimdən
həzin-həzin ağı deyir
bir qadın xəyallarımda
silir göz yaşlarını
kövrəlirəm
onsuz da
kim demişkən
damla - damla yağır
ömür də

bir yandan ...
nə yaxşı
bu payız öldürür məni





downloaded from KitabYurdu.org

# Ömür haqqında şeir-esse

1

birdən birə hər şeyin gözündə mənasızlaşdı
həyatın boşluğu
adamı
öz ağuşuna aldığı vaxtlarda
yaşamağın belə
nə qədər mənasız olduğu barədə
düşündüyün halda
gözlənilmədən için fərəhlə dolar
nəyisə xatırladığından:
qarşıdan payız gəlir

2

küləkli havalarda
yenə də saxlayıb maşını düşəcəyəm
şəhərin görkəmli yerlərindən
biri ilə üzbəüz
yağışın islatdığı dəniz sahilinə
tək olacağam tək - tənha
yağışı sevənlər belə seyr edəcək onu
pəncərə şüşələrinin arxasından



downloaded from KitabYurdu.org

yağış aldadacaq məni yenə də
unudub dənizi dayanacağam üzü yağışa
neçə il əvvəl yad bir şəhərdə
saatlarla üzü yağışa dayanan
on iki yaşlı bir uşaq kimi

qoxutmaz o uşağı şıdırğı yağış
nə də
islanıb xəstələnməkdən qorxmaz
o uşaq
əksinə
təsəlli olar ona yağış
təsəlli olar
yad bir şəhərdə
çox sevdiyi adama sevgisinin
zərrə - zərrə azaldığı anlarda

3

neçə ildi
dayanar bir uşaq üzü yağışa
böyüyə - böyüyə
neçə ildi
bir uşaq böyüyər üzü yağışa
sevinə - sevinə





downloaded from KitabYurdu.org

4

indi
böyük bir uşaq dayanıb üzü yağışa
amma dayana bilməz saatlarla
dayana bilməz
islanmaqdan qorxmaz
qorxar gecikməkdən
o böyük uşaq

5

qarşıdan payız gəlir
ümidim yenə də yağışa qaldı



downloaded from KitabYurdu.org

# Bədheybət
## *(şeir-pritca)*

*Bəşəriyyəti – Mənəviyyatı*
*sarsıdan bütün*
*ideyalara ölüm!*

Ana bətninə nifrət eləyirdi

o müdhiş gecənin
ağrısını yaşayırdı Ana
bətni dolduqca
sevgi yox nifrət böyüyürdü
Ananın içində

sevgi yox
nifrət doğacaqdı Ana
bilirdi bunu
bilirdi
o müdhiş gecədən sonra...

bütün gözəlliklərə
qənim kəsilmişdi Bədheybət
gözəlliyindən ölürdü
öldürülürdü adamlar





downloaded from KitabYurdu.org

solurdu
Ananın gözəlliyi də
solurdu
Bədheybət böyüdükcə

Yeni Məmləkət yaranırdı
yeni ölçülərlə
Yeni Məmləkətdə
yeni gözəllik meyarı yaranırdı: Bədheybət
Bədheybətə oxşar
övlad doğan analar sevinirdi

Ana bətninə nifrət eləyirdi
Bədheybət BÖYÜYÜRDÜ



downloaded from KitabYurdu.org

# Təpəgöz
## *(şeir-pritça)*

gülə - gülə
gəlmişdi dünyaya
amma bir gözlü gəlmişdi
sevgi ilə dolu idi
yeganə gözü

hamını sevirdi hamını
amma
heç kim sevmirdi onu

ağlayan da belə
inanmırdılar ona
inanmırdılar
yeganə gözün göz yaşlarının
həqiqi olduğuna...

qatil olduğuna tez inandılar
sonrasa qorxdular ondan
qorxdular qəzəbindən

indi hamı sevməyə hazır idi onu
sevməyə hazır idi
güclü və qəzəbli olduğundan



downloaded from KitabYurdu.org

o sevə bilmirdi
heç kimi artıq
sevgi ilə yox
qəzəblə dolu idi yeganə gözü

qəzəbli güclü olsa da
yırtıcı ola bilmədi zavallı
ola bilmədi

nə insan ola bildi
nə də ki heyvan
dönüb
axırda Təpəgöz oldu



downloaded from KitabYurdu.org

# Yıxılan adam haqqında şeir-pritça

yaşamağa tələsirdi adamlar

Qapıya çatar - çatmaz yıxıldı
qalxmaq istədi yıxıldığı yerdən
qalxa bilmədi
üstündən yan - yörəsindən şütüyən adamlar
daha tez keçmək istəyirdilər
kəndarında yıxıldığı Qapıdan

yaşamağa tələsirdi hamı

ona çatanda kimsə dayanmaq istədi
dayanıb qaldırmaq istədi onu
arxadan gələnlər qoymadılar
Qapıya qədər yol
bir adamlıq azalmışdı
heç kim bir adamlıq yeri
güzəştə getmək istəmirdi ona
hamı tələsirdi axı
tələsirdi yaşamağa
“yıxılan adam ölüyə bənzər bir az” –
öldüyü barədə düşündü



downloaded from KitabYurdu.org

adamlar elə hey şütüyürdülər
Qapıya sarı
qalxa bilmirdi yıxıldığı yerdən

birdən ona elə gəldi ki
Qapıya çatar - çatmaz hamı yıxılır
heç kim keçə bilmir
yaşamağa tələsdiyi Qapıdan
bağlanır Qapı
bağlanır yıxılan adamlarla

yıxılmağa tələsirdi adamlar sanki

yıxılan adam ölüyə bənzər bir az
hamı tələsirdi...



downloaded from KitabYurdu.org

*80-90-cı illər*

# *ÜMİDLƏRİN ÖLÜMÜ*



downloaded from KitabYurdu.org

***

Dogulursan,
beşiyin boyuna
düzəlir,

böyüdükcə
paltarın boyuna
biçilir,

üzüqara ölüm
gəlir,
məzarın boyuna
qazılır,
insan övladı.



downloaded from KitabYurdu.org

***

Kafelər küncündə darıxmıram,
kimsədən küsmürəm,
heç nə istəmirəm
bufetçinin gülümsər sifətindən,
bir də badə dostumun
tərifli sözlərindən savayı,

Motsartdan, Leybnitsdən danışıram,
şeir söyləyirəm.

Kafelər küncündə darıxmıram,
kafelər küncünə tərtəmiz,
gül kimi dünya sığışar,

kafelər küncündə
öldüm – dirildim.



downloaded from KitabYurdu.org

***

Bu yaz da
mənsiz keçdi.

Alça ağacları
mənsiz çiçəklədi,
oğul həsrətli gözlər
dikildi yollara
bu yaz da.

Bu yaz da
səfil arzularımın
əsiri oldum
Azərbaycan adlı
bu məmləkətdə.

Bu yaz da
belə keçdi,
bu yaz da
mənsiz keçdi,

qaldı gələn yaza,
qaldı gələn yaza



downloaded from KitabYurdu.org

***

*Qızım Əsmərə*

Bu il tez gəldi payız,
gəldi nə gəldi,
gəldi yaman gəldi,
yağan yağışlara könlüm
allandı.

Ata yurdunda yarpaq tökümü,
qızımın əlində ölümü
qızılı rəngli armud yarpağı.

Qızımın sevinci payız,
anamın əlləri
qocalmış payız,
ata yurdunda yarpaq
tökümü? ...

Sevincim - kədərim payız,
qızılı, qırmızı payız,
gözəlim, gözəlim payız,
bütün gözəlliklərə
qırmızı ölümmü
vəd eləyirsən?!



downloaded from KitabYurdu.org

***

Nə xoşbəxtəm, nə bədbəxt,
nə sevmək dilərəm,
nə də sevilmək.

Daha sevilləsi heç nə
qalmadı,
içiləsi and yerim yox daha,

kimsənin görmədiyi
göz yaşlarım – dualarım,
yenə təkliyə çəkildim,

Pərvərdigara,
qəbul et dualarımı



downloaded from KitabYurdu.org

***

Sonuncu qədəhi çəkdi başına,
bir araqlıq ümid də öldü,
daha içə bilmədiyindən
hara gedəcəyi haqda düşündü,

tüstülü kafedən
yağışlı küçəyə çıxdı,
sabaha islanmış ümidlər qaldı.
Sabahın xeyirli olsun,
köhnəlmiş ümidlər
köməyin olsun,
yolun hayanadı,
mənə oxşayan?



downloaded from KitabYurdu.org

***

Hər şeyin xilası
sonunda,
hər şey sonunda
başlayar,
mən də sonumda
doğuldum,
böyüdüm yavaş - yavaş.

Yaşamaq – asta-asta ölmək,
qorxmayın, anam - bacım,
qorxmayın,
ölürəm yavaş - yavaş.

Hər şeyin axarı sonunda,
hər şeyin axırı sonunda,
hər şey sonunda başlayır,
mən də sonumda başlaram,
əlacım yüz qram sevgi,
yüz qram sevgi çəkim
başıma,
yaşayım yavaş - yavaş,
tükənim yavaş - yavaş...



downloaded from KitabYurdu.org

***

Falıma bax, falçı,
falıma bax,
aç kartları, düz yan - yana,
taleyimi de, falçı,
taleyimi de.

Sən tale yazan deyilsən,
tale deyənsən,
mənsə taleyimi bilənlərdənəm;

sən taleyimi
bər - bəzəkli kartlardan,
ovcumdakı
əyri - üyrü xətlərdən
oxuyursan,
mənsə taleyimi
çartdamış gözlərdən,
qocalmış əllərdən oxumuşam.

Sən tale yazan deyilsən,
tale deyənsən,

söylə falçı,
söylə görüm,
yaşamağa dəyərmi?



downloaded from KitabYurdu.org

***

Ümidlərin ölümü
doğulmayan arzulardan
daha dəhşət,

harda öldü, necə öldü
ümidlərim,

ağ saçlarımın sayı qədər
dəfn olunmuş ümidlərdən sonra
necə yaşayacam görəsən,

harda, necə doğulacaq
yeni ümidlər,
harda, necə öləcək yenə,

harda, necə yaşayacam
görəsən...
Allah, Məhəmməd,
Ya Əli.



downloaded from KitabYurdu.org

***

*Nazim Hikmətə*

Dondum,
somsoyuq gözlərdə dondum,
söndüm,
ehtirassız baxışda söndüm,

istəməm, yavrum, istəməm,
hissiz, ehtirassız sevgi istəməm,
hissiz, ehtirassız sevgi nədi ki,
hissiz, ehtirassız nifrət istəməm,
hissiz, ehtirassız ağac nədi ki,
hissiz, ehtirassız yarpaq istəməm,

istəməm, yavrum, istəməm,
hissiz, ehtirasız heç nə istəməm.

Bağışla, gedirəm, çıxıb gedirəm,
dönük baxışlardan küsüb gedirəm,
soyuq baxışlardan düşüb gedirəm,
gedirəm, bir sevda gözləyir məni,
öpüb saxlayacam gözlərim üstə,

soyuq baxışlarda
külüm qalacaq...



downloaded from KitabYurdu.org

***

Sevgilərə vaxt qalmadı,
sevgilərə vaxt qalmadı – deyə
əriyirəm, dostum, əriyirəm göz görəsi,

hər günü
yeni gün kimi başlayıb,
son gün kimi yaşayıram.

Sevgilərə vaxt qalmadı,
sevgilərə vaxt qalmadı-deyə,
özüm özümə yad, qərib,
özüm özümə dost, düşmən,
özüm özümə təsəlli.

Sevgilərə vaxt qalmadı,
sevgilərə vaxt qalmadığından,
nə qədər gözəllər küsdürmək olar,
nə qədər sevgilər uydurmaq olar.

Sevgilərə vaxt qalmadı,
sevgilərə vaxt qalmadı – deyə,
dostum, yaddaşım
sevginin "Zaman maşını".



downloaded from KitabYurdu.org

***

Bu gün
ölüm hökmü verilmiş
məhbus kimiyəm,

qorxub diksinirəm
hər addım səsindən,
hər kəlmə sözdən.

Ölüm hökmü verilmiş
məhbus kimi
ürəyim təşvişdə,
qulağım səsdə,

sevgi arayıram
hər deyilən sözdə,
hər baxan gözdə.

Ölüm hökmü verilmiş
məhbus kimi
cəllad kötükləri, dar ağacları,
dümqara ölüm – son ümidim.



downloaded from KitabYurdu.org

Bu gün
ölüm hökmü verilmiş
məhbus kimiyəm,

bu gündən hifz elə məni,
Ya Rəbb.



downloaded from KitabYurdu.org

## MÜNDƏRİCAT

2005-ci ildən sonra
YOXOLMA


Yoxolma ..... 5
Yay yağışı ..... 9
Yaşımın üstünə yaş gəlib ..... 11
Xoşbəxtlik ehtimalı ..... 12
Bir bazar günü ..... 15
A = B = C ..... 16
Kəsişmə nöqtəsi ..... 22
0 = 1 ..... 24
Dama – dama ..... 30
Çay qırağında ..... 32
Köhnə paltar ..... 35
Bir növ sevgi haqqında ..... 39
Ömür sürəti ..... 43
Avqust qeydləri: dəniz, göy üzü, gözlərim və güzgü ..... 46
Pəncərə ..... 51
Dağınıq düşüncələr ..... 53
Ayrılıqlar yağdı ömrümə ..... 61
İnam, aldanış və hər an intihar ..... 64
Nəğmə ..... 67
Qəriblik ..... 71
Günahkar ..... 74
Tərcümeyi-hal ..... 77
Evimizdə ..... 79
0-dan 1-ə kimi ..... 81
Evlər ..... 82




downloaded from KitabYurdu.org

Səhər güzgü önündə ........ 83
Sizsizlik........ 85
Boşluq........ 89
Qarşımda ........ 90
Müqəddəs ........ 92
Onun adı Şərəf idi ........ 95

2000-2005-ci illər
SEVGİDƏN DOGULAN SÜKUT KİMİYƏM

O qədər ucadayam ........ 103
Məyusam........ 104
Bir payız günü ........ 105
Özümü qura bilmədim........ 106
Mən, yenə də özüm........ 107
Ya mən məkandayam........ 108
Ağrılarımla başımı qatası bir gün yaşadım ........ 110
Hardan gəlib ........ 111
İşıq – kölgə........ 113
Səbəb – nəticə ........ 114
Hər dəfə........ 115
Bir balaca yol tapdı ki ........ 116
Göz yaşlarını........ 118
Hədiyyə kimi gətirərsən mənə........ 120
Ləpələr dənizdə ........ 121
Gecə yarı... ........ 122
2003 - cü il yanvarın biri ........ 123
Gəlirəm........ 125
Yüz il, min il, milyon il........ 127
Uzanan yollar ........ 129



downloaded from KitabYurdu.org

37 yaş da belə getdi ...131
Dəniz qırağındakı ...133
Bayırda yağış yağır...134
İlk dəfə ...135
Gedəkmi? ...137
Yenə də darıxıram ...138
Yanağında göz yaşı...140
Əlacsızlıqdan ...141
Yağır qar dənələri...143
Bayıl türməsindən ...145
Yanımda...147
İnsana oxşamayan ...148
Gecə ...149
Yenə payız gəlir ...151
Necə yazdın Rekviemi ...152
Torpaq - addım səsləri...154
Zaman – axır ...155
Asılanda da ...156
Dekabırın ikisi...157
Hər gün ...158
Uzaqdan gələn qərib səs kimi ...160
Onda qar yağırdı ha – ...161
Dəyişəcək əllərin səmtini...163
Yağışın altında ...165
Qapısı yarımaçıq şkaf ...167
Yumub gözlərimi ...169
Görən nə qədər ötər...170
Bu axşam ...171
Sükut – nə gözəldir ...172
Adam belə birtəhər olur e ...173



downloaded from KitabYurdu.org

Qəribə bir şirinliyi olur gözləməyin ........................................175
Bağışlayarsan məni bilirəm........................................176
Doqquz il həbs kəsdilər........................................178
Bəzən ........................................180
Deyirlər ........................................181
Alın yazısına sığmaz........................................183
Tutacam yenə də ........................................184
Qoxlasam səni........................................186
Gəzib........................................187
Sahilində dayandığım dəniz........................................188
Dedilər........................................189
Unudulan unudulmayan görüşlərə........................................191
İsti yay günlərinin birində ........................................192
Bir-birinə sıxılmış əllərin kölgəsi........................................194
Mənim yıxılmağım yıxılmaq deyil oğlum........................................196
Qar – yağır........................................198
Mini şeirlər ........................................199
Mərd kişinin duası və yaxud yarımçıq əsər ........................................204
Sonsuzluq ........................................211
Vağzal........................................217
Gün ........................................222
Ömür haqqında şeir-esse........................................226
Bədheybət........................................229
Təpəgöz........................................231
Yıxılan adam haqqında şeir-pritça ........................................233

80-90-cı illər
ÜMİDLƏRİN ÖLÜMÜ

Dogulursan........................................237
Kafelər küncündə darıxmıram ........................................238



downloaded from KitabYurdu.org

Bu yaz da mənsiz keçdi ....................239
Bu il tez gəldi payız ....................240
Nə xoşbəxtəm, nə bədbəxt....................241
Sonuncu qədəhi çəkdi başına....................242
Hər şeyin xilası....................243
Falıma bax, falçı ....................244
Ümidlərin ölümü....................245
Dondum ....................246
Sevgilərə vaxt qalmadı ....................247
Bu gün ....................248



downloaded from KitabYurdu.org

ƏLİ ŞİRİN ŞÜKÜRLÜ

# XOŞBƏXTLİK EHTİMALI

"Şərq-Qərb"
Bakı - 2011

downloaded from KitabYurdu.org

"Şərq-Qərb" Nəşriyyat evində çapa hazırlanmışdır

Buraxılışa məsul: *Rasim Müzəffərli*

Texniki redaktor: *Rövşən Ağayev*

Rəssam: *Humeyra*

Kompyuter səhifələyicisi
və üz qabığının dizaynı: *Xəqani Fərzalıyev*

Korrektor: *Əsmər Şükürlü*

Çapa imzalanmışdır 30.11.2011
Formatı 70×100 $^{1}/_{32}$. Fiziki çap vərəqi 16
Sifariş N 290. Tiraj 500

"Şərq-Qərb" Nəşriyyat evinin mətbəəsində çap olunmuşdur.

AZ 1123 Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 370 68 03; 374 75 62
Faks: (+99412) 370 68 03; 370 18 49
www.eastwest.az

downloaded from KitabYurdu.org